AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 48 (1393), 20 - 26 noyabr 2018-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*



## Prezident İlham Əliyev Beynəlxalq Paralimpiya Komitəsinin prezidentini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Beynəlxalq Paralimpiya Komitəsinin prezidenti Endrü Parsonsu qəbul edib.

Dövlətimizin başçısı Beynəlxalq Paralimpiya Komitəsinin prezidenti Endrü Parsonsun Azərbaycana səfərinin onun təmsil etdiyi qurumla ölkəmiz arasında əməkdaşlığın perspektivlərini müzakirə etmək üçün yaxşı imkan yaratdığını dedi. Prezident İlham Əliyev Azərbaycanda idmana, o cümlədən paralimpiyaya yüksək dövlət qayğısı göstərildiyini qeyd edərək bildirdi ki, ölkəmizdə aparılan idman siyasəti Azərbaycanın ictimai həyatında böyük rol oynayır. Azərbaycanda paralimpiyaçılara göstərilən xüsusi diqqət və qayğıdan danışan dövlətimizin başçısı bildirdi ki, paralimpiyaçılarımız Yay Paralimpiya və eləcə də Avropa Oyunlarında yaxşı nəticələr göstərmişlər.

Prezident İlham Əliyev Endrü Parsonsun Ümumdünya Antidopinq Agentliyinin Təsisçilər Şurasının Bakıda keçirilən iclasında iştirakının önəmini qeyd etdi və ölkəmizin bu təşkilatla da yaxşı əməkdaşlıq həyata keçirdiyini dedi.

Beynəlxalq Paralimpiya Komitəsinin prezidenti Endrü Parsons Azərbaycana üçüncü dəfə səfər etdiyini, ötən dövr ərzində ölkəmizdə böyük inkişaf proseslərinin getdiyinin şahidi olduğunu vurğuladı. O, Prezident İlham Əliyevin idmana, o cümlədən paralimpiyaçılara böyük diqqət və qayğı göstərdiyini qeyd etdi və bu münasibətlə beynəlxalq paralimpiya hərəkatı adından dövlətimizin başçısına minnətdarlığını bildirdi. Endrü Parsons Azərbaycanda paralimpiyanın inkişafının bir nümunə olduğunu vurğuladı.

## Bakıda WADA-nın Təsisçilər Şurasının və İcraiyyə Komitəsinin iclasları keçirilib

Bakıda Ümumdünya Antidopinq Agentliyinin (WADA) Təsisçilər Şurasının və İcraiyyə Komitəsinin iclasları keçirilib. Tədbirdə gənclər və idman naziri Azad Rəhimov, WADA-nın prezidenti Kreyq Ridi, baş direktor Olivier Niqli, İcraiyyə Komitəsinin və Təsisçilər Şurasının üzvləri, rəsmilər və digər qonaqlar iştirak ediblər.

İclasda ötən ilki fəaliyyətin yekunlarına dair hesabat məruzəsi dinlənilib, eyni zamanda, 2019-cu ilin noyabrında Polşada keçiriləcək İdmanda Dopinq Konfransının prezidenti və vitse-prezidenti vəzifələrinə seçkilərin qaydaları müzakirə olunub.

Mərasimdə WADA-nın müstəqil normalara riayət edilməsi komitəsinin rəhbərlərinin çıxışları dinlənilib və bu istiqamətdə qəbul edilmiş qərarlar haqqında yeni məlumatlar verilib. Bununla yanaşı, iclasda qurumun daimi komitəsinin sədrləri tərəfindən maliyyə, tibb, təhsil və digər sahələrdə görülən işlər də müzakirə edilib.

*(ardı 2-ci səhifədə)*



*Olimpizm*

### BOK xəbərdarlıq edir

İspaniya beynəlxalq idman tədbirlərinə ev sahibliyi etmək hüququndan məhrum edilə bilər. Buna səbəb kimi İspaniyanın Kosovonun müstəqilliyi ilə bağlı mövqeyi əsas götürülür. Belə ki, bu ölkənin rəhbərliyi Kosovonun beynəlxalq yarışlarda öz bayrağı və himni ilə çıxış etməsinin əleyhinədir.

Beynəlxalq Olimpiya Komitəsi (BOK) bütün federasiyalara bu məsələ ilə bağlı məktub göndərməyi planlaşdırır.

BOK-un Milli Olimpiya Komitələri ilə Əlaqə Komissiyasının sədri Pere Mironun sözlərinə görə, beynəlxalq qurum federasiyalardan İspaniyanın təsirinə uymamağı xahiş edir.

Xatırladaq ki, İspaniya hökuməti 2008-ci ildə öz müstəqilliyini elan edən Kosovo Respublikasını tanımaq istəmir.

### Tayvana sanksiya tətbiq olunacaq

Beynəlxalq Olimpiya Komitəsi (BOK) Tayvana sanksiya tətbiq edə bilər. Buna səbəb həmin ölkənin Tokio-2020 Yay Olimpiya Oyunlarında başqa ad altında çıxış etmək istəməsidir.

Bu həftənin sonunda həmin məsələ ilə bağlı Tayvanda əhali arasında səsvermə keçiriləcək. Respondentlər ölkənin Olimpiya Oyunları da daxil olmaqla, beynəlxalq idman tədbirlərində hansı ad altında çıxış edəcəyinə münasibət bildirəcəklər. İki variant var- Çin Taypeyi və yaxud Tayvan.

BOK artıq Çin Taypeyi və Çin Respublikasına xəbərdarlıq məktubu göndərib.

## Çingiz Hüseynzadə:

*"Azərbaycan komandasının Buenos-Ayres-2018 Olimpiadasında çıxışından razıyam"*

Səh. 3



## Azərbaycan ilə Türkiyə arasında idman sahəsində əməkdaşlığın inkişafına dair fikir mübadiləsi aparılıb

Ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının gənclər və idman naziri Mehmet Muharrem Kasapoğlunun başçılıq etdiyi nümayəndə heyəti ilə noyabrın 15-də Azərbaycan Milli Olimpiya Komitəsində (MOK) görüş keçirilib. Görüşdə MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə, gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov və MOK-un baş katibinin müavini Azər Əliyev iştirak ediblər. MOK ilə qardaş ölkənin Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi arasında sıx əlaqələrin olduğunu vurğulayan Ç.Hüseynzadə bu əməkdaşlığın gələcəkdə də uğurla davam edəcəyinə əminliyini bildirib. Komitənin fəaliyyəti və uğurları barədə qonaqlara ətraflı məlumat verən vitse-prezident deyib ki, Olimpiya Oyunlarında nəticələrini daha da yaxşılaşdıran Azərbaycan milli komandası sonuncu - Rio Olimpiadasında 18 medal, o cümlədən 1 qızıl, 7 gümüş və 10 bürünc qazanıb. Bu, Azərbaycanın idman ölkəsi olduğunu bir daha sübut edir.

Nazir Mehmet Muharrem Kasapoğlu Azərbaycan ilə Türkiyə arasında bütün istiqamətlərdə əməkdaşlığın sürətli inkişafının idman sahəsində də müşahidə edildiyini vurğulayıb. Qonaq ölkələrimiz arasında idman və gənclər sahələrində əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün böyük potensialın olduğunu vurğulayıb. Türkiyəli nazir Bakının ötən il IV İslam Həmrəyliyi Oyunlarına yüksək səviyyədə ev sahibliyi etdiyini diqqətə çatdıraraq, növbəti - V İslamiadanın İstanbulda təşkil olunacağını bildirib. Qeyd edilib ki, bu, türk dünyasında idmanın inkişafda olduğunu və ona marağın artdığını bir daha göstərir.

Söhbət zamanı müvafiq qurumlar arasında əlaqələrin inkişafına dair fikir mübadiləsi aparılıb, gələcək planlar müzakirə olunub.

## Anons

*Ciddə şəhərində İslam Həmrəyliyi İdman Federasiyasının 28-ci iclasına yekun vurulub* Səh. 2

Gimnastlarımız Bakıda keçirilən Dünya kuboku yarışlarında gümüş medal qazandılar Səh. 2

UEFA nümayəndələri Bakıya səfər ediblər Səh. 6

*Pəhləvanlarınız Buxarestdən 7 medalla qayıtdılar* Səh. 2

*"Neftçi"nin yaşayan əfsanəsi -Kazbek Tuayev* Səh. 6

Veteranlar yubileyi stadionda qeyd etdilər Səh. 6

"Əlilliyi olan şəxslər: fiziki məhdudiyyətdən sosial inteqrasiyaya" Səh. 7



# Bakıda WADA-nın Təsisçilər Şurasının və İcraiyyə Komitəsinin iclasları keçirilib

(əvvəli 1-ci səhifədə)

Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov jurnalistlərə müsahibəsində WADA-nın Təsisçilər Şurasının və İcraiyyə Komitəsinin iclaslarının Bakıda ilk dəfə təşkil olunmasının əhəmiyyətini xüsusi vurğulayıb. Nazir bildirib ki, bu cür mötəbər tədbirin Bakıda keçirilməsi Azərbaycanın qısa müddətdə antidopinq sahəsində gördüyü işlərdən WADA-nın razı qalmasının göstəricisidir. Ona görə də bu mötəbər tədbirin keçirilməsində ölkəmizə yüksək etimad göstərilib. İdman ictimaiyyətinin tanınmış simaları Bakıda səfərdədirlər. Burada mühüm məsələlər müzakirə olunur. Bildiyiniz kimi, idmançılarla bağlı böyük mübahisələr baş verir. Bizim əsas məqsədimiz təmiz idman və ədalətli oyunlardır. Ona görə də iclasın bu baxımdan rolunun çox böyük olacağını düşünürük.

* * *

Ümumdünya Antidopinq Agentliyinin (WADA) yeni prezidentinin seçkisi 2019-cu il noyabrın 7-də Katovitsedə olacaq. Seçkilər təsisçilər şurasının iclasında keçiriləcək. Həmin iclasın tarixi və yeri çərşənbə günü WADA-nın İcraiyyə Komitəsinin Bakıda keçirilmiş iclasında təsdiq olunub.

WADA-nın hazırkı prezidenti Kreyq Ridi bu təşkilata 2013-cü ildən rəhbərlik edir. Ridinin səlahiyyət müddəti başa çatanda o, vəzifəsini tərk edəcək. 77 yaşlı şotlandiyalı Kreyq Ridi idman birliyinin nümayəndəsidir. Buna görə də, təşkilatın qaydalarına əsasən, WADA-nın növbəti rəhbəri dövlət nümayəndəsi olmalıdır. Norveçin uşaqlar, hüquq bərabərliyi və sosial inteqrasiya məsələləri üzrə naziri, hazırda WADA-nın vitse-prezidenti olan Linda Helleland və Polşanın idman naziri Vitold Banka bu vəzifəni tutmaq arzusunu bildiriblər.

WADA-nın İcraiyyə Komitəsinin Azərbaycan paytaxtında keçirilən iclasında Təsisçilər Şurasının növbəti iclasının tarixi və yeri də təsdiq edilib: həmin iclas gələn il mayın 16-da Monrealda keçiriləcək.

* * *

Ümumdünya Antidopinq Agentliyinin (WADA) 2019-cu il üçün büdcəsi 34,67 milyon dollar təşkil edəcək. Qərar agentliyin Bakıda keçirilən Təsisçilər Şurasının iclasında təsdiq olunub. Qeyd edilir ki, yeni büdcə 2018-ci illə müqayisədə 8 faiz artırılır. Cari ildə WADA-nın büdcəsi 32 milyon dollar təşkil edib. May ayında Təsisçilər Şurasının Monrealda keçirilən iclasında agentliyin büdcəsinin dörd il müddətində hər il 8 faiz artırılması qərara alınıb. Ümumdünya Antidopinq Agentliyinin büdcəsi Beynəlxalq Olimpiya Komitəsinin və üzv ölkələrin hökumətlərinin üzvlük haqları hesabına formalaşır.

# Azərbaycan paralimpiya hərəkatında da lider ölkədir



Ölkəmizdə səfərdə olan Beynəlxalq Paralimpiya Komitəsinin prezidenti Endrü Parsons Azərbaycan Milli Paralimpiya Komitəsinin prezidenti İlqar Rəhimov ilə görüşüb.

Görüşdə İlqar Rəhimov ölkəmizdə paralimpiya hərəkatının mövcud durumu və inkişafı barədə qonağa ətraflı məlumat verib. Qeyd olunub ki, Prezident İlham Əliyevin yüksək diqqət və qayğısı nəticəsində ölkəmizdə paralimpiya hərəkatı sürətlə inkişaf edir.

İ.Rəhimov bildirib ki, Azərbaycan Milli Paralimpiya Komitəsi 1996-cı ildə iki idman növü ilə fəaliyyətə başlayıb. Fəaliyyəti dövründə paralimpiya millimiz 6 Yay Paralimpiya Oyununda iştirak edib. Hazırda komitənin nəzdində 14 yay və 3 qış idman növləri üzrə paralimpiya milli komandaları fəaliyyət göstərir. İdmançılarımızdan 7-si Paralimpiya, 7-si dünya, 17-si Avropa çempionu, 1-i Avropa Oyunlarının, 12-si isə İslam Həmrəyliyi Oyunlarının qalibidir.

Diqqətə çatdırılıb ki, paralimpiya hərəkatının regionlarda sürətli inkişafının təmin edilməsi məqsədilə 2018-ci ildə Gəncədə Azərbaycan Milli Paralimpiya Komitəsinin regional bölməsi yaradılıb. 2017-ci ildə Azərbaycan Əlil Arabasında Qılıncoynatma Federasiyası və cari ildə Azərbaycan Boccia İdman Federasiyası fəaliyyətə başlayıb. 2013-cü ildə beynəlxalq tərübədə ilk dəfə olaraq, Azərbaycan Milli Paralimpiya Komitəsinin nəzdində Uşaq Paralimpiya Komitəsi (UPK) yaradılıb. Azərbaycan Milli Paralimpiya Komitəsi tərəfindən idarə olunan UPK-nın məqsədi sağlamlıq imkanları məhdud uşaqların idmana cəlb olunması yolu ilə ehtiyat idmançıların hazırlanması və onların abilitasiya və reabilitasiya vasitəsilə cəmiyyətə inteqrasiyasına dəstək verməkdir.

Federasiya prezidenti bildirib ki, 2015-ci ildən başlayaraq hər il respublika üzrə Uşaq Paralimpiya İdman Oyunları keçirilir. Cari il noyabrın 13-də IV Oyunlar başlayıb. Keçiriləcək yarışlara respublikanın müxtəlif regionlarından sağlamlıq imkanları məhdud 130-dan artıq paralimpiyaçı uşaq idmanın 8 növü üzrə mübarizəyə qoşulub. İlk dəfə olaraq, Oyunlarda Gürcüstandan olan uşaqlar da iştirak edirlər. Milli Paralimpiya Komitəsi paralimpiya idman növləri ilə yanaşı, əlil arabasında idman rəqsi, paraşütlə tullanma və bouling qeyri-paralimpiya idman növlərinin inkişafına da dəstək verir.

Endrü Parsons Azərbaycan Milli Paralimpiya Komitəsinin fəaliyyətini yüksək qiymətləndirib. O deyib ki, Azərbaycan regionda digər sahələrdə olduğu kimi, paralimpiya hərəkatında də lider ölkədir.

Görüşdə 2020-ci ildə Yaponiyanın paytaxtı Tokioda keçiriləcək XVI Yay Paralimpiya Oyunlarına hazırlıqla əlaqədar geniş müzakirələr aparılıb.

# Gimnastlarımız Bakıda keçirilən Dünya kuboku yarışlarında gümüş medal qazandılar

Azərbaycan Gimnastika Federasiyası (AGF) ilin sonunda daha bir mötəbər yarışa, akrobatika üzrə Dünya kuboku yarışlarına ev sahibliyi etdi. Beynəlxalq turnirdə Azərbaycanla yanaşı, Belarus, İsrail, Qazaxıstan, Hindistan, Rusiya və Ukrayna gimnastları da qüvvələrini sınadılar.

Noyabrın 17-18-də Milli Gimnastika Arenasında keçirilən yarışlarda gimnastlar kişi cütlüyü, qadın cütlüyü, qarışıq cütlük, qadın qrupu və kişi qrupu tərkibində mübarizə apardılar.

Yarışın ilk gününə gimnastların təsnifat çıxışları ilə start verildi. Daha sonra isə rəsmi açılış mərasimi keçirildi. Açılış mərasimini açıq elan edən gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov ölkədə idmana göstərilən diqqət və qayğıdan danışaraq, gimnastika yarışlarının yüksək səviyyədə təşkilatçılığını xüsusi vurğuladı. Rəsmi hissə bitdikdən sonra, mərasimin bədii hissəsinə start verildi.

Dünya kuboku yarışlarının nəticələrinə görə, kişi cütlüyümüz Seymur Cəfərov və Murad Əkbərov (28,600 bal) gümüş medal qazandılar. Bu növdə qızıl medala rusiyalı gimnastlar Timofey İvanov və Maksim Karavayev (29,182 bal), bürünc medala isə qazaxıstanlı idmançılar Daniel Dil və Vadim Şulyar (28,583 bal) sahib oldular.

Qarışıq cütlüyümüz Abdulla Əl-Məşayxi və Ruhidil Qurbanlı (29,646 bal) da onlara bəslənilən ümidləri doğruldaraq gümüş yarışları medalla başa vurdular. Qızıl medalı rusiyalı gimnastlar KirillStartsev və Viktoriya Aksenova (29,663 bal), bürünc medalı isə Belarus təmsilçiləri Artur Belyakov və Olqa Melnik (28,942 bal) qazanıblar.

Bununla da, Azərbaycan Gimnastika Federasiyası mövsümün sonuncu Dünya kuboku yarışlarını uğurla yola salıb.




# Ciddə şəhərində İslam Həmrəyliyi İdman Federasiyasının 28-ci iclasına yekun vurulub

Noyabrın 14-15-də Səudiyyə Ərəbistanının Ciddə şəhərində İslam Həmrəyliyi İdman Federasiyasının (İHİF) 28-ci iclası keçirilib. İclasda Azərbaycandan İslam Həmrəyliyi İdman Federasiyasının İcraiyyə Komitəsinin ilk xanım üzvü və İstanbulda keçiriləcək növbəti İslam Həmrəyliyi Oyunlarının Koordinasiya Komissiyasının üzvü Könül Nurullayeva iştirak edib. İHİF-in Qadın və İdman Komitəsinin rəhbəri Könül Nurullayeva çıxışında gender bərabərliyi ilə bağlı aktual məsələlərə toxunub, bu istiqamətdə araşdırmalar aparıb ciddi addımlar atmağın vacibliyini qeyd edib. İlk dəfə olaraq Könül Nurullayeva tərəfindən idmanda qadın siyasətinin həyata keçirilməsində gender məsələləri üzrə İslam ölkələrinin məsul şəxslərinin iştirakı ilə konfransın təşkili və daha iki layihə İcraiyyə Komitəsinə təqdim olunub. İcraiyyə Komitəsi layihələri dəyərləndirib və 2019-cu ildə icrası ilə bağlı razılıq verib.

Eyni zamanda, tədbir zamanı Banqladeşdə keçirilən İHİF-in ikinci kamandan oxatma, cari ilin iyulunda Bakıda təşkil edilmiş ikinci tennis çempionatlarının hesabatları, İstanbulda keçiriləcək beşinci İslam Həmrəyliyi Oyunlarının hazırlıq mərhələsi, 2019-cu ildən etibarən Səudiyyə Ərəbistanında keçiriləcək Gənclərin Birinci İslam Həmrəyliyi Oyunlarının hazırlıq hesabatı, Milli Olimpiya Komitələri arasında imzalanacaq anlaşma memorandumları və s. mövzular müzakirə olunub.

## Macarıstanda idman rəqsləri üzrə dünya çempionatı keçiriləcək

Noyabr ayında Macarıstanın Peç şəhərində ikinci dəfə idman rəqsləri üzrə dünya çempionatı ("World DanceSport Formation Standard 2018") , həmçinin rəqslər üzrə "Szigo" Kuboku uğrunda yarışlar keçiriləcək. 2016-cı ildən bəri ikinci dəfədir ki, bal rəqsləri ilə bağlı müsabiqə Macarıstanda təşkil olunur.

Tədbirin noyabrın 24-25-də keçirilməsi nəzərdə tutulur.

Təşkilatçılar budəfəki çempionatın daha maraqlı olacağını vəd edirlər. Artıq yarışlara hazırlıq və komandaların qeydiyyatı gedir.

Dünya çempionatına əlavə olaraq, tədbirin ikinci günü rəqslər üzrə "Szigo" Kuboku uğrunda yarışlar keçiriləcək. Bu yarışlarda müxtəlif yaş qruplarının nümayəndələri iştirak edəcəklər.

# Pəhləvanlarınız Buxarestdən 7 medalla qayıtdılar

***Rumıniyanın paytaxtı Buxarestdə keçirilən 23 yaşınadək güləşçilərin dünya çempionatına yekun vurulub.***

Komandamıza yeganə qızıl medalı sərbəst güləşçimiz Şamil Zubairov (92 kq) qazandırıb. Debütdə erməni güləşçiyə heç bir şans verməyən pəhləvanımız növbəti mərhələdə Qazaxıstan təmsilçisi ilə qarşılaşıb. Rəqibini asanlıqla mübarizədən kənarlaşdıran təmsilçimiz Hindistan güləşçisini də məğlub edərək adını yarımfinala yazdırıb. Onun ukraynalı güləşçiylə qarşılaşması dramatik şəraitdə keçib. Görüşün sonuna 6 saniyə qalmış həlledici xalı qazanan Şamil Zubairov rəqibinə minimal fərqlə qalib gələrək finala vəsiqə qazanıb. Onun həlledici qarşılaşmada rəqibi Rusiya təmsilçisi Aslanbek Sotiev olub. Güclü rəqibini də mübarizədən kənarlaşdıran Şamil Zubairov dünya çempionu tituluna layiq görülüb. Qeyd edək ki, Şamil U-23 dünya çempionatı tarixində ilk qızıl medalçımızdır.

Sərbəst güləşçilərdən yığmamızın hesabına gümüş medalı Əli Rəhimzadə (65 kq) yazdırıb. Təmsilçimizin ilk görüşü ağır mübarizə şəraitində keçib. Kanada təmsilçisi ilə qarşılaşmada hesabda 1:3 geridə olan Rəhimzadə son saniyələrdə əldə etdiyi 2 xal sayəsində növbəti mərhələyə yüksəlib. Əli Rəhimzadə Moldova güləşçisini də üstələyərək, adını yarımfinala yazdırıb. Macar güləşçisi ilə keçən qarşılaşmada o, finala vəsiqə qazanıb.

Pəhləvanımızın qızıl medal uğrunda Yaponiya idmançısı ilə mübarizə aparıb. Final qarşılaşması olduqca gərgin mübarizə şəraitində keçib. Sonda seviən yapon güləşçi olub və Əli Rəhimzadə gümüş medalı boynundan asıb.

Digər sərbəst güləşçimiz Murad Süleymanov (86 kq) mundiala erməni güləşçisi üzərindəki qələbə ilə başlayıb. Murad daha sonra gücünü belaruslu pəhləvana göstərib və yarımfinala yüksəlib. Ancaq idmançımız finalın bir addımlığında Rusiya nümayəndəsinə uduzub. Bürünc medal görüşünə çıxan Murad Süleymanov kanadalı rəqibinə qalib gələrək üçüncü yerə sahib olub. Beləliklə, sərbəst güləş komandamız yarışları 62 xalla 7-ci yerdə başa vurub.

Dünya çempionatına 7 idmançı ilə yollanan yunan-Roma güləşi komandası yarışlarda 2 gümüş və 1 bürünc medala layiq görülüb. Medalları komandamıza Murad Məmmədov (60 kq), Kərim Cəfərov (67 kq) və İslam Abbasov (87 kq) qazandırıb. Murad Məmmədov ilk mərhələdə Özbəkistan idmançısına rahat qalib gəlib. Pəhləvanımız qırğız rəqibini də yolundan kənarlaşdırıb. İdmançımızın 1/4 finalda gürcüstanlı güləşçi ilə görüşü gərgin mübarizə şəraitində keçib. Əzmkarlıq nümayiş etdirən Murad yarımfinala yüksəlib. Pəhləvanımız bu mərhələdə türk güləşçiyə də gücünü göstərərək, finala vəsiqə qazanıb. Yaponiya təmsilçisi ilə qızıl medal uğrunda mübarizə aparan güləşçimiz güclü rəqiblə bacara bilməyib və gümüş medalı boynundan asıb.

Kərim Cəfərov (67 kq) təsnifat mərhələsində amerikalı rəqibini fasiləyə qədər məğlub edib. Güləşçimiz yaponiyalı həmkarını da vaxtından əvvəl üstələyib. Kərim Cəfərov qazaxıstanlı rəqibiylə gərgin keçən görüşdən də qalib ayrılaraq, adını yarımfinala yazdırıb. Macarıstanlı rəqibinə də heç bir şans verməyən güləşçimiz finala adlayıb. Həlledici qarşılaşmada misirli idmançı ilə mübarizədə rəqibindən zəif olan Kərim Cəfərov dünya ikincisi olub. Beləliklə, yunan-Roma yığmamız 71 xalla komanda hesabında ilk "5-liy"i qapayıb.

Dünya çempionatında iştirak edən qadın güləşçilərimizdən yalnız Elis Manolova (65 kq) fərqlənib. Azərbaycan yığmasına 4-cü gümüş medalı məhz zərif cinsin nümayəndəsi qazandırıb. Elis Manolova üçün start uğurlu alınıb. O, 1/8 finalda Monqolustan təmsilçisini məğlub edib. Elisin 1/4 finalda Rusiya idmançısıyla mübarizəsi maraqlı alınıb. Belə ki, 2:8 hesabıyla geridə qalan xanım idmançımız görüşün sonuna 1 dəqiqə qalmış tuşe ilə qalib gələrək yarımfinala yüksəlib. Yığmazın üzvü isveçli rəqibini də üstələyərək adını finala yazdırıb. Finalda yaponiyalı güləşçi ilə bacara bilməyən Elis Manolova gümüş medala sahib olub.

Beləliklə, Azərbaycan güləşçiləri dünya çempionatını 7 (1 qızıl, 4 gümüş və 2 bürünc) medalla başa vurublar.

**B i z i m   m ü s a h i b ə**



*2018-ci ilin ən mühüm idman tədbirlərindən biri də Avropa Yeniyetmələrinin III Yay Olimpiya Oyunları oldu. Argentinanın Buenos-Ayres şəhərində keçirilən olimpiadada iştirak edən Azərbaycan idmançıları vətənə 7 (3 qızıl, 1 gümüş və 3 bürünc) medalla qayıtdılar. İdmanımızın gələcəyi olan gənc atletlərimiz gələn il ölkəmizdə təşkil ediləcək Avropa Gənclərinin Olimpiya Festivalında qüvvələrini sınağa çəkəcəklər. Bundan başqa, qarşıda idmançılarımızı Minsk-2019 II Avropa Oyunları, eləcə də, dünyanın ən mötəbər idman tədbiri olan Tokio-2020 Yay Olimpiya Oyunları gözləyir.*

*Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadənin yeniyetmə idmançılarımızın olimpiadada çıxışları və Bakı-2019 Olimpiya Festivalı, Minsk-2019 II Avropa Oyunları, Tokio-2020-yə hazırlıq, eləcə də, beynəlxalq Olimpiya Hərəkatında gedən proseslər barədə fikirləri ilə "Olimpiya dünyası" qəzetinə verdiyi eksklüziv müsahibəsində tanış ola bilərsiniz.*

# Çingiz Hüseynzadə:

## *"Azərbaycan komandasının Buenos-Ayres-2018 Olimpiadasında çıxışından razıyam"*

***- Çingiz müəllim, bu ilin ən böyük idman tədbirlərindən biri də Argentinada təşkil edilən Yeniyetmələrin III yay Olimpiya Oyunları oldu. Yarışdan əvvəl müsahibələrinizdə yarışın təşkilatçılığı ilə bağlı müəyyən problemlərin olduğunu bildirmişdiniz. İdmançılarımızın bu olimpiadada nəticələri və ümumiyyətlə, yarışın təşkili barədə fikirlərinizi bilmək istərdik.***

- Son illər Beynəlxalq Olimpiya Komitəsi (BOK) istər yeniyetmələr, istərsə də, böyüklər arasında keçirilən Olimpiya Oyunlarına çəkilən xərcləri azaltmaq məqsədi ilə müxtəlif tədbirlər həyata keçirir. BOK xərcləri azaltmaq üçün bu yarışlara rəsmilərin dəvət olunmasını istəmir və VİP-lərin nəqliyyat xərclərindən imtina edir. Bunları hardasa başa düşmək olar, amma Olimpiya kəndində idmançıların yeməyinə qənaət edilməsini anlamaq çətindir.İdmançılarımız Argentinada verilən yeməyin keyfiyyətindən və bolluğundan narazı qaldılar. Adətən, Olimpiya Oyunlarında Avropa və Asiya mətbəxindən istifadə olunur, amma biz Buenos-Ayresdə bunu görmədik. Təbii ki, bu cür hallar olimpiadaya öz təsirini göstərmədi və yarışlar yüksək bayram əhval-ruhiyyəsində keçdi.

Azərbaycan idmançıları Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında yaxşı nəticə göstərdilər. Düzdür, bu nəticə Sinqapur-2010 və Nankin-2014 Olimpiadası ilə müqayisədə o qədər də yüksək nəticə deyil, amma etiraf edək ki, Buenos-Ayres-2018-ə seçim qaydaları da çox çətin idi. Olimpiadaya lisenziyanı ancaq çempion olan idmançı ala bilərdi. Burada məqsəd hər idman növü üzrə bütün qitələrdən atletlərin iştirakını təmin etmək idi. Sinqapurda və Nankində ənənəvi idman növü olan güləşdə 5 idmançımız iştirak etdiyi halda, Buenos-Ayresdə cəmi 2 idmançımız yarışırdı. Bu da istər-istəməz medal sayına və əyarına öz təsirini göstərdi. Bu olimpiadanın üstünlüyü müxtəlif idman növlərində təmsil olunmağımız oldu. Məsələn, tennis və üzgüçülük kimi idman növlərində təmsil olunmaqla yanaşı, pis nəticə də göstərmədik. Xüsusilə, tennisçilərimiz komanda yarışlarında gözəl oyun nümayiş etdirdilər. Qadın güləşçimiz Şahanə Nəzərova qızıl medala iddialı idmançılardan idi. Amma güclü qrupa düşdüyü üçün yarışı bürünc medalla başa vurdu. Bu sözləri ağırlıqqaldıranımız Tərmenxan Babayev haqqında da deyə bilərəm.

### "Çox güman ki, Bakı-2019 Olimpiya Festivalı başqalarından seçiləcək"

Azərbaycan idmançılarının Buenos-Ayresdə qazandıqları uğurları yaxşı nəticə hesab edirəm. Bu olimpiadada qazanılan 7 medal ayrı-ayrı idman növlərində əldə edilib. Bu da ölkəmizdə idmana olan diqqət və qayğının nəticəsi kimi bu sahənin inkişafının göstəricisidir. Medallardan 6-sı ölkəmizin, 1-i, yəni bədii gimnastımızın qazandığı qızıl medal isə BOK-un komandasının hesabına yazıldı. Mənim fikrimcə, sonuncu medalın dəyəri çox yüksəkdir. Çünki idmançımız beynəlxalq komandanın tərkibində fərqlənə bildi. Ümumiyyətlə, Azərbaycan komandasının Buenos-Ayres-2018 Olimpiadasında çıxışından razıyam. Ümid edirəm ki, medal qazanıb-qazanmamalarından asılı olmayaraq, bu olimpiadanın hər bir iştirakçısı gələcəkdə ölkəmizi böyük idman yarışlarında layiqincə təmsil edəcək.

***- Olimpiadanın açılış mərasimi şəhərin ən böyük meydanında təşkil edildi. 2019-cu ildə Bakıda keçiriləcək Avropa Gənclərinin Olimpiya Festivalının açılış mərasimini necə və harada təşkil etmək planlaşdırılır?***

- Qeyd etdiyim kimi, BOK yarışların təşkilinə artıq xərc çəkilməsini istəmir və bunun nəticəsi olaraq, son illər olimpiadaların açılış və bağlanış mərasimləri əvvəlki kimi təmtaraqlı keçirilmir. Yeniyetmələrin III Yay Olimpiya Oyunlarının açılış mərasimi son dərəcə sadə keçdi və bundan tamaşaçılar böyük zövq aldılar. Gələn il Bakıda keçiriləcək Avropa Gənclərinin Olimpiya Festivalının açılış mərasimini də, qaydalara uyğun olaraq, sadə və bayram əhval-ruhiyyəsi ruhunda təşkil də etməyi planlaşdırırıq. Bu tədbir çox güman ki, 20 min tamaşaçı tutumu olan və Xəzərin sahilində yerləşən "Kristal Hall"da təşkil ediləcək. Açılış mərasiminin proqramı, bədii hissə və digər məsələlər gənclərin maraqlarına uyğunlaşdırılacaq. Bağlanış mərasiminin təşkili də eyni qaydada olacaq. Təbii ki, avropalılar Bakı-2015 Avropa Oyunlarının açılış mərasimi kimi möhtəşəm bir tədbiri görməyəcəklər, amma çox güman ki, Bakı-2019 Olimpiya Festivalı başqalarından seçiləcək.

***- Bugünlərdə AOK-un 47-ci Baş Assambleyasında iştirak etdiniz. Assambleyada hansı məsələlər müzakirə olunurdu?***

- Hər ilin noyabr ayında Avropa Olimpiya Komitəsinin (AOK) Baş Assambleyası keçirilir. Hesabat xarakteri daşıyan bu tədbirdə 50 ölkənin milli Olimpiya komitələrinin nümayəndələri iştirak edirlər və il ərzində görülən işlərə yekun vururlar. Baş Assambleyada II Avropa Oyunlarının, Tokio-2020 Təşkilat Komitələrinin hesabatları dinlənildi. BOK-un prezidenti Tomas Bax "Olimpiya gündəliyi-2020" proqramı çərçivəsində çıxış etdi və yeni istiqamətləri müəyyənləşdirdi. Avropa Olimpiya Komitələri Assosiyasının (ANOCA) prezidentliyinə seçkilər keçirildi və Polşa MOK-nun prezidenti seçildi. Bundan başqa, AOK və BOK-un maliyyə hesabatları dinlənildi. Pyotr Nurovski mükafatına 5 yer uğrunda namizədlərin seçimində avstriyalı idmançı qalib oldu.

Tədbir iştirakçıları Bakı-2019 Avropa Gənclərinin Olimpiya Festivalının hazırlığına dair təqdimatı da dinlədilər. Təqdimat xüsusi maraqla qarşılandı. AOK Koordinasiya Komissiyasının sədri çıxışında Bakıda hazırlıqla bağlı hər şeyin öz qaydasında olduğunu bildirdi.

### "Məğlubiyyət acısı idmançını qarşıdakı yarışlara daha əzmlə hazırlaşmağa məcbur edir"

***- Çingiz müəllim, Tokio-2020 Olimpiadasına hazırlıqla bağlı mətbuata geniş informasiya verilmir. Bununla bağlı nə deyə bilərdiniz?***

- Tokio-2020 Olimpiadası ilə bağlı heç bir problem yoxdur və hazırlıq öz qaydasında gedir. Bunu Tokio-2020 Təşkilat Komitəsi hesabat məruzəsində də qeyd etdi. Təbii ki, yeniliklərin olacağı istisna deyil. Ən birinci yenilik Olimpiya proqramına 5 idman növünün -beysbol (softbol), karate, skeytbordinq, qayaya dırmanma və sörfinq-daxil edilməsidir. Lakin müəyyən məsələlər var ki, hələ öz həllini tapmayıb. Bu yeni daxil edilən idman növləri üzrə təsnifat yarışları ilə bağlıdır. Məsələn, götürək, karateni. Bu idman nözü üzrə lisenziya reytinq xalına görə veriləcək. Yeri gəlmişkən, karateçilərimiz buyaxınlarda keçirilən dünya çempionatında pis çıxış etmədilər. Xanım idmançımız qızıl, Rafael Ağayev isə bürünc medala sahib oldu.

Tokio-2020 Olimpiadası bizim üçün məsuliyyətli və çətin yarışlardan biri olacaq. Çünki idmançılarımız Rio-2016 Olimpiadasında çox sayda -18 medal qazanıblar və çalışmalıyıq ki, bu nəticələri təkrarlamaqla, həm də qızıl medalların sayını artıraq. Bunun üçün potensial imkanları olan idmançılarımız kifayət qədərdir.

***-Yeri gəlmişkən, lider idmançımız Rafael Ağayev karyersında ilk dəfə dünya çempionatından bürünc medalla qayıtdı. Buna münasibətiniz?***

- Rafael həmişə qələbəyə, həm də, qızıl medala öyrəşib və bizi də öyrəşdirib. Düşünürəm ki, budəfəki dünya çempionatında 3-cü yer tutması lider idmançımızın Tokio-2020 Olimpiadasından əvvəl məsuliyyətini daha da artıracaq. Məğlubiyyət acısı idmançını daha mübariz olmağa və qarşıdakı yarışlara daha əzmlə hazırlaşmağa məcbur edir. Karate Tokio-2020 Olimpiadasının proqramında daxil edilməsəydi, Rafael idmandan bəlkə də, getmişdi. Çünki o, indiyədək istədiyi bütün titulları əldə edib.

***- Güləşçilərimiz son dünya çempionatında imkanlarından zəif çıxış etdilər. Bunun səbəblərini nədə görürsünüz?***

- İdmançının uğur qazanması üçün bir sıra mühüm məqamlar vacibdir. Bura məşqdən tutmuş federasiyada mövcud abu-hava, şərait, maliyyə və bir sıra məsələlər daxildir. Güləş idman növündə yenilənmə mütləqdir. Yeni nəsil yetişməlidir ki, köhnəni əvəz etsin. Eldəniz Əzizli çempion olması ilə güləşə yeni ad gətirdi. Amma onun dünya çempionu olmasının arxasında illərin zəhməti var. Eldəniz dünya və Avopa çempionu, Olimpiya Oyunlarının 2 qat gümüş mükafatçısı Rövşən Bayramovun çəkisindədir. Acınacaqlı olsa da, deməliyəm ki, güləşdə bəzi çəki dərəcələri var ki, orda ehtiyatımız demək olar ki, yoxdur. Burada məsuliyyət yalnız yığmanın məşqçilərinin üzərinə düşmür. Bölgələrdəki mütəxəssislərdən də çox şey asılıdır. İdman rəqabət deməkdir. İdmançı hər zaman hiss eləməlidir ki, onun yerinə keçə bilən namizəd var. Əgər o bunu hiss eləməsə, yerində sayacaq. Bu, şübhəsizdir. Düşünürəm ki, güləş federasiyasında vəziyyət tədricən öz axarına düşür və güləşçilərimiz yenə də uğurları ilə bizi sevindirəcəklər.

***- Minsk-2019 Avropa Oyunları ilə bağlı qısa fikirlərinizi bilmək istərdik.***

- Gələn il Belarusun Minsk şəhərində keçiriləcək II Avropa Oyunlarına hazırlıq prosesi davam edir. Yarışların proqramında nümayiş etdirilən 10 idman növü olimpiadaya lisenziya verəcək. İdmançılarımızın bu yarışlarda əldə etdikləri nəticələr Tokio-2020 Olimpiadasına nə dərəcədə hazır olduğumuzu ortaya qoyacaq. Təbii ki, Minsk-2019 Oyunlarında da müəyyən təcrübələrin aparılması istisna deyil. Onlardan biri atletika idman növünün proqrama daxil edilməməsidir. Atletika elə bir idman növüdür ki, top idmançılar gərgin qrafik səbəbi ilə bu formatda olan yarışlarda iştirak edə bilmirlər. Xatırlayırsınızsa, I Avropa Oyunlarında güclü atletlər yarışmırdılar. Avropa Atletika Federasiyasının dəstəyi və mənim təşəbbüsümlə 3-cü divizionun və Avropa komanda qrupunun yarışlarını burada keçirdik. Bu qayda normativlər əsasında lisenziya verən üzgüçülük yarışlarına da aiddir. Mənim fikrimcə, bu, düzgün deyil. Məhz belə səbəblərdəndir ki, Beynəlxalq Üzgüçülük Federasiyası üzgüçülük yarışlarının Olimpiya proqramından çıxarılması tələbi ilə çıxış edir. Mən deyərdim ki, üzgüçülük, basketbol, atletika idman növləri üzrə federasiyalar maliyyə cəhətdən o qədər gücləniblər ki, artıq onların BOK-un maliyyə dəstəyinə ehtyacları yoxdur. Yəqin ki, bu məsələ ilə bağlı ortaq məxrəcə gələnəcək.

### "Əvvəllər olimpiada uğrunda dünyanın nəhəng ölkələri mübarizə aparırdılar"

***- Çingiz müəllim, necə düşünürsünüz, Olimpiya Oyunlarına ev sahibliyi ilə bağlı sanki əvvəlki rəqabət hiss olunmur?***

- Tamamilə doğrudur. Əvvəllər olimpiada uğrunda dünyanın nəhəng ölkələri, şəhərləri mübarizə aparırdılar və bununla bağlı güclü rəqabət var idi. Amma sonuncu olimpiadada bu rəqabətin zəifləməyinin şahidi olduq. Belə ki, BOK İcraiyyə Komitəsi Rio-2016 Olimpiadasının gedişində Olimpiada-2024 və Olimpiada 2028-in ev sahiblərini tez-tələsik müəyyənləşdirdi. Bu bir tərəfdən, yuxarıda qeyd etdiyim kimi, BOK tərəfindən xərclərin azaldılması məsələsi ilə bağlıdır. Çünki bu proses həddən artıq böyük xərc tələb edir. BOK bununla həm də vaxt qazanmış oldu. Bu, həm də "Olimpiya gündəliyi-2020" proqramının irəli gələn müddəalarla bağlıdır.

### "Futbol ulduz oyunçular üzərində qurulur"

***- Necə düşünürsünüz, qlobal istiləşmə və tamaşaçı marağının azalması qış Olimpiadasını təhlükə altına alırmı?***

- Mən belə düşünmürəm. Qış Olimpiadalarına maraq həmişə var və olacaq da. Düşünürəm ki, qış idman növləri üzrə federasiyalar yay idman növləri ilə müqayisədə daha çevik və işgüzar təsiri bağışlayırlar. Bunu Olimpiya proqramında edilən yeniliklər də sübut edir. Növbəti qış Olimpiadası 2022-ci ildə Pekində keçiriləcək və əminəm ki, bu yarışların yüksək səviyyədə təşkili bu ağ Olimpiadaya marağı daha da artıracaq.

***- Olimpiya proqramında edilən dəyişikliklərə münasibətiniz necədir?***

- Əvvəllər Olimpiya Oyunlarının qaydaları və proqramı sabit idi. Medalların sayı 300 dəst olmalı, Olimpiya kəndində atletlərin sayı isə 10 500-dən artıq olmamalı idi. Eləcə də, proqramda yalnız 28 idman növü nümayiş etdirilirdi. Yeni növün daxil edilməsi üçün köhnəsinin xaric edilməsi mütləq idi. Yeni idman növünün Olimpiya proqramına daxil edilməsi üçün ən başlıca şərt onun bütün qitələr üçün qəbul olunmasıdır. Bir vaxtlar beysbolun proqramdan çıxarılması da bununla bağlıdır. Bu idman növü yalnız Amerikada, Asiyada və Avstraliyada oynanıldığı üçün proqramdan xaric edildi. Xuan Antonio Samarançın dövründən əvvəl isə təşkilatçı ölkə proqrama istədiyi bir idman növünü daxil etmək imkanına malik idi. Cüdo, taekvondo kimi idman növləri proqrama məhz belə daxil edilib. Otüstü hokkeylə bağlı maraqlı bir hadisəni danışmaq istəyirəm. Moskva-1980 Olimpiadasında ruslar proqrama sambonu daxil etməyi təklif etsələr də, BOK bunu cüdo ilə oxşar olduğu üçün qəbul etmədi. Belə olan halda Hindistan prezidenti İndira Qandi SSRİ-nin rəhbəri L.İ.Brejnevə zəng vuraraq xahiş edib ki, otüstü hokkeyi proqrama daxil etsinlər. Axı Hindistan bu idman növündə çox güclü idi. Seul-1988 Olimpiadasından sonra bu prinsip ləğv edildi. Tokio-2020-nin proqramında isə 28 deyil, artıq 33 idman növü yer alacaq.

***- "Qarabağ" klubu Avropa liqalarında uğurlu çıxış edə bilmədi. Halbuki ötən il klubumuz Çempionlar Liqasında daha yaxşı oyun nümayiş etdirmişdi...***

- "Qarabağ"ın azarkeşi kimi deyə bilərəm ki, komandanın builki heyəti zəif olduğundan yaxşı oyun nümayiş etdirə bilmədi. Uğursuzluğun başlıca səbəbi komanda oyununun olmamasıdır. Klubdan gedən futbolçular tam şəkildə əvəz olunmadı. Müdafiədə eyni oyunçular olsa da, əvvəlki oyunu nümayiş etdirə bilmədilər. Götürək, Rəşad Sadıqovu. Yaş amili öz sözünü deyir və o artıq oyunda əvvəlki kimi çatdıra bilmir. Komanda hücumda da uğurlu deyil. Çünki hücuma keçmək, taktikanı qurmaq üçün çox vaxt sərf edirlər. Bu da istər-istəməz öz təsirini göstərir. Millidə də vəziyyət eynidir. Dünya təcrübəsi də göstərir ki, klub və yığmanı eyni mütəxəssisin çalışdırması düzgün deyil. Çünki məşqçi eyni adam olduğu üçün klub da, yığma da eyni oyunu oynayacaq. Başqa cür mümkün deyil. Bu, klub, bir yığma halında uğurlu ola bilər. Necə ki, bizdə əvvəllər voleybolda var idi. Vaxtilə Madrid "Real"ı İspaniya yığmasında dəfələrlə güclü oyun nümayiş etdirirdi. Məsələn, götürək elə Messini. O, klubda göstərdiyi oyunu millidə göstərə bilmir. Ya da ki, futbolçu var ki, klubda oynaya bilməsə də, yığmada əla oynayır.

Qurban Qurbanov yaxşı məşqçi olduğunu artıq çoxdan sübut edib. Yaxşı məşqçinin də uğursuzluqları olur. Hamı futbolu eyni gözlə görmür. Ronaldo "Real"dan getdi. Amma yeni klubda heç nə edə bilmir. Kollektiv başqa bir şeydir. Mən öz fikrimdə qalıram ki, futbol ancaq ulduz oyunçular üzərində qurulur. İnanıram ki, "Qarabağ" klubu gələcəkdə daha yaxşı uğurlar qazanacaq.

***Səadət Hakıyeva***

**Hesabat kürsüsü**

***Ölkədə idman və Olimpiya Hərəkatının təbliğinə xidmət edən "Olimpiya dünyası" qəzeti öz işini idman federasiyaları, cəmiyyətləri və klubları ilə sıx və əlaqəli şəkildə qurur. Qəzetimiz idman qurumları ilə əməkdaşlığı daha da genişləndirmək məqsədilə "Hesabat kürsüsü" adlı yeni layihəyə start verir. Layihə əsasında federasiyaların fəaliyyəti, görülən işlər, idmançılarımızın qazandıqları uğurlar barədə hesabat xarakterli yazılar dərc olunacaq.***

***Layihə çərçivəsində budəfəki qonağımız Azərbaycan Güləş Federasiyasının (AGF) baş katibi Orxan Məmmədovdur. O, qəzetimizə federasiyanın il ərzində gördüyü işlər, idmançılarımızın nailiyyətləri, müəyyən çatışmazlıqlar və gələcək planlar barədə danışdı.***

# Orxan Məmmədov: *"Yeniyetmə güləşçilərimiz ümidləri doğrultdular"*



***- Orxan müəllim, AGF öz işini günün tələbləri əsasında quran və aktiv fəaliyyət göstərən federasiyalardan biridir. Bu ənənəni davam etdirə bilirsinizmi?***

- Azərbaycan Güləş Federasiyası ölkə idmanında öz sözünü deyə bilən qurumlardan biridir. Pəhləvanlarımız hər zaman iştirak etdikləri yüksək səviyyəli beynəlxalq yarışlarda uğurla çıxış edir, vətənə medallarla qayıdırlar. Düzdür, müəyyən problemlər, çətinliklər olsa da, bunların öhdəsindən gəlirik. Azərbaycanda qədim ənənələrə malik olan güləş idman növünü inkişaf etdirmək və kütləviliyini təmin etmək üçün var gücümüzlə çalışırıq. Yüksək fəallıq göstərmək və aparıcı federasiyalardan biri olmaq üçün mümkün olan bütün vasitələrdən istifadə edirik.

***- AGF 2018-ci ili hansı nailiyyət və nöqsanlarla yola salır?***

- Əsas uğurumuz Buenos-Ayresdə keçirilən Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında qeydə alındı. Yeniyetmə idmançılarımız Makedoniyanın paytaxtı Skopyedə keçirilən Avropa çempionatında iki lisenziya qazandılar. Əvvəlkindən fərqli olaraq, yalnız çempionlara lisenziya verilirdi. Bu da müəyyən çətinlik yaradırdı. Buna baxmayaraq, sərbəst və qadın güləşində 1 lisenziya qazandıq. Olimpiadada yunan-Roma güləşində də təmsil oluna bilərdik. Ancaq müəyyən qədər hakim haqsızlığı ilə üzləşdik. Nəticədə güləşin bu növündə lisenziyadan məhrum olduq.

***- Turan Bayramovun və Şahanə Nəzərovanın Yeniyetmələrin III Yay Olimpiya Oyunlarındakı uğuru barədə nə deyə bilərsiniz?***

- Lisenziya sayı az olsa da, güləşçilərimiz ümidləri doğrultdular. Turan Bayramov bütün rəqibləri üzərində parlaq qələbə qazanaraq Olimpiya çempionu adını qazandı. Şahanə Nəzərovaya gəlincə, o, ötən il başqa çəkidə həm dünya, həm də Avropa çempionu olmuşdu. Ancaq həmin çəki Olimpiya kateqoriyası deyildi. Bu səbəbdən məcburiyyətdən çəki dərəcəsini dəyişdirdik. Bu il Olimpiya çəkisində yarışan xanım idmançımız həm Avropa, həm də dünya çempionatının finalçısı oldu. Əvvəldən Şahanə üçün Olimpiya Oyunlarında çətin olacağını bilirdik. Buna baxmayaraq, o, yarışı bürünc medalla başa vurmağı bacardı.

## "Yunan-Roma güləşində dünya çempionlarımızın sayı o qədər də çox deyil"

***- Axırıncı dünya çempionatında güləşçilərimiz imkanlarından zəif çıxış etdilər. Buna səbəb nə idi?***

- Yığmaların təlim-məşq toplanışları qaydasında keçmişdi. İdmançılarımız ilboyu planlaşdırılan yarışlarda iştirak etmişdilər. Turnirləri də normal nəticələrlə başa vurmuşdular. Dünya çempionatında sərbəst güləşçilərin belə çıxışı həm federasiya rəhbərliyi, həm də məşqçilər korpusu üçün gözlənilməz oldu. Halbuki son Avropa çempionatında iki sərbəst güləşçimiz yarışı çempion kimi başa vurmuşdu. Heyətdə təcrübəli güləşçilərlə yanaşı, gənclər də var idi. Onların gələcəyi qarşıdadır. Yəqin ki, bir müddət keçdikdən sonra həmin güləşçilər ümidləri doğruldacaqlar. 3 qat dünya çempionumuz Hacı Əliyev mundialdan 1 ay əvvəl Belarusda keçirilən turnirin yarımfinalında türkiyəli güləşçiylə görüşdə dizindən zədələnmişdi. Hacı Əliyev dünya çempionatına 10 gün qalmış komandanın məşqlərinə qoşulsa da, tam bərpa oluna bilmədi. Bu da öz sözünü dedi. Qadın güləşində Mariya Stadnik (50 kq) finala çıxdı və gümüş medalçı oldu. Lakin nəzərə alaq ki, Mariya finala qədər güclü Asiya təmsilçilərinə qalib gəldi.

Dünya çempionatı ərəfəsində Stadnik xəstələnmişdi. Bunun da müəyyən qədər təsiri oldu. İstənilən halda, dünya çempionatının finalçısı olmaq asan məsələ deyil. İrina Netrebanın (65 kq) bürünc medal qazanması xoş sürpriz oldu. Xanım idmançımız məşqlərə məsuliyyətlə yanaşan və öz üzərində işləyən idmançıdır. Yunan-Roma güləşi üzrə yığmamızın çıxışını isə qənaətbəxş hesab etmək olar. Komanda qızıl medal veribsə, bunu yaxşı nəticə saymalıyıq. Tarixə nəzər salsaq, yunan-Roma güləşində dünya çempionlarımızın sayı o qədər də çox deyil. Əvvəllər bu növdə Məhyəddin Allahverdiyev, Fərid Mansurov, Rövşən Bayramov, Həsən Əliyev və Rəsul Çunayev dünya çempionu olublar. Eldəniz Əzizli (55 kq) də onların sırasına qoşuldu. Bir faktı da deyim ki, Budapeştdə yunan-Roma güləşində cəmi 5 ölkə qızıl medal qazandı ki, onlardan da biri də Azərbaycan oldu.

***- Necə düşünürsünüz, yığmaya cəlb olunan legionerlərin heç də hamısı özünü doğrultmur. Belə idmançılara qarşı hansı tədbirlər görülür?***

- Həqiqətən, bəzi çəkilərdə qızıl medal gözlədiyimiz legionerlər ümidləri doğrultmadı. Ancaq bəzilərinin uğursuz çıxışı səbəbsiz deyil. Gənclərdən indi nəticə gözləmək tezdir. Təcrübəlilərə gəlincə, Georgi Edişerașvilinin (57 kq) Avropa çempionatının finalında qalib gəldiyi Rusiya idmançısı dünya çempionu oldu. Ancaq Edişeraşvili medalsız qaldı. Bunun da əsas səbəbi yarışdan əvvəl çiynində zədəsinin olması idi. Elə ilk görüşdə - koreyalı idmançıyla mübarizədə zədəsi daha da ağırlaşdı. İdmançımız növbəti iki görüşü də bu vəziyyətdə keçirdi. Nəticədə 1/4 finalda amerikalı pəhləvanla yaxşı güləşə bilmədi və mübarizəni dayandırdı. Halbuki Georgi daha öncə iki dəfə həmin rəqibinə qalib gəlmişdi. Uğursuzluqla üzləşən digər legionerlərə rəhbərlik və məşqçilər korpusu tərəfindən iradlar çatdırılıb, səhvləri deyilib. İnanırıq ki, bu iradlardan nəticə çıxarıb, gələn il keçiriləcək beynəlxalq yarışlarda yenidən öz sözlərini deyə biləcəklər.

***- Regionlarda güləşin təbliği və inkişafı istiqamətində aparılan işlərin səviyyəsi sizi qane edirmi?***

- Sərbəst güləş üzrə yığmamız əsasən bölgələrdən olan güləşçilərin hesabına formalaşır. Bu mənada Şamaxı, Gəncə, Qazax, Sumqayıt, Astara və Cəlilabad güləş məktəblərini fərqləndirə bilərəm. Son illərdə cəmiyyətlərdə işlər bir qədər ləng gedir. İdman məktəblərində güləş bölmələrinin işində axsamalar var. Güləş ənənələri olan şəhərlərdən Şirvan və Mingəçevirdə geriləmə daha çox müşahidə olunur. Yunan-Roma güləşində, əsasən, Bakı və Sumqayıt şəhərlərindəki cəmiyyətlərdən yetişən güləşçilər millidə yer alır. Ancaq burada da görülən işlər bizi tam mənada qane etmir. Bu səbəblərdəndir ki, yeniyetmələrin olimpiadasına bu növdə vəsiqə qazana bilmədik. Təəssüf ki, yeniyetmələrin Avropa və dünya çempionatında da yunan-Roma güləşçilərimizdən qızıl medal qazanan olmadı.

## "Uşaqlar bizim gələcəyimizdir"

***- Uşaqlar arasından istedadlı güləşçilərin seçilib aşkar edilməsinə necə diqqət yetirilir?***

- Bizdə kiçikyaşlı yeniyetmələr üzrə yığmalar fəaliyyət göstərir. Həmin milli komandaların məşqçiləri bölgələrdə seleksiya işləri aparır. Müxtəlif yarışlardan istedadlı uşaqları seçib Bakıya dəvət edirlər. Paytaxtda fəaliyyət göstərən Respublika Olimpiya İdman Liseyinə (ROİL) bölgələrdən 12 yaşadək güləşçilər cəlb olunurlar. Onlar burada güləşlə məşğul olmaqla yanaşı, təhsillərini də davam etdirirlər. Maliyyə məsələsində geriləmə olsa da, bu istiqamətdə işlərimiz axsamayıb. Əksinə, azyaşlılara diqqət daha da artırılıb. Çünki uşaqlar bizim gələcəyimizdir. İstedadlı güləşçilərin qayğıyla əhatə olunması, göz önündə və güclü nəzarət altında olması vacibdir.

***- AGF-nın qarşısında duran həllivacib məsələlər barədə fikirlərinizi bilmək istərdik.***

- Bildiyiniz kimi, əvvəllər Azərbaycan Güləş Federasiyası tərəfindən Heydər Əliyev adına "Qran-pri" yarışları təşkil edilirdi. Bu yarış "Qızıl Qran-pri" də adlanırdı. İstərdik ki, bu yarışı yenidən bərpa edək. Gənclər arasında "AGF kuboku" turniri təşkil edirdik. Həmçinin, Naxçıvan kuboku keçirilirdi. Bu yarışları da yenidən keçirtmək istərdik. Güləşçilərin yarış təcrübəsi qazanmasında bu turnirlərin əvəzsiz rolu var. Onlar ustalıqlarını məhz belə yarışlarda artırırlar. Bu həm də dünya və Avropa çempionatlarına hazırlıq funksiyasını da yerinə yetirir. Rövşən Bayramov, Cəbrayıl Həsənov, Toğrul Əsgərov, Hacı Əliyev və başqa tanınmış güləşçilərimiz məhz belə turnirlərdə üzə çıxıb, pillə-pillə yüksəliblər.

***Səadət Hakıyeva***

**Ağırlıqqaldırma**

# Olimpiya dərəcəli hakimimiz dünya çempionatında uğurla çıxış edib




Xəbər verdiyimiz kimi, noyabrın 1-10-da Türkmənistanın paytaxtı Aşqabad şəhərində kişilər və qadınlar arasında ağırlıqqaldırma üzrə dünya çempionatı keçirilib. Aşqabad Olimpiya Kompleksində təşkil olunan yarışda 91 ölkədən 693 atlet medallar uğrunda mübarizə aparıblar. Dünya çempionatında Azərbaycan milli komandası da qüvvəsini sınayıb. Yığma komandamızla yanaşı Aşqabadda keçirilən dünya çempionatında Olimpiya dərəcəli hakimimiz Vahid Nəzərov da iştirak edib. O, bu yarışda münsiflər heyətinin üzvü kimi yer alıb.

Ədalət təmsilçimizlə görüşüb, onun yarış barədə təəssüratlarını öyrəndik.

"Qeyd edim ki, Aşqabbada keçirilən çempionat Tokio-2020 Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyırdı. Mən bu yarışda ölkəmizi beynəlxalq hakim kimi təmsil edirdim. Beynəlxalq Ağır Atletika Federasiyasının dəvətinə əsasən münsiflər heyətində yer almışdım. Bir daha qeyd edim ki, bu yarış təkcə idmançılar arasında deyil, həmçinin hakimlər arasında da lisenziya xarakteri daşıyırdı. Bu çempionatdan sonra Misir və Qətərdə lisenziya xarakterli yarışlar təşkil olunacaq. Həmin yarışlarda da iştirak üçün dəvət almışam. Nəzərinizə çatdırım ki, Tokio Olimpiadasında hakim kimi təmsil olunmaq üçün 6 mərhələdən keçməliyəm. Qeyd edim ki, dünya və Avropa çempionatları hakimlər üçün ən yüksək lisenziya xalları qazandırır", - deyə Vahid Nəzərov bildirdi.

Yarış haqqında məlumat verən hakimimiz bu çempionatın yeni çəki dərəcələri əsasında keçirildiyini qeyd etdi. "Yarış yüksək səviyyədə təşkil olunmuşdu. Çempionatda rekord sayda ölkələr iştirak edirdi. İdmançılar bu yarışda yeni çəki dərəcələri üzrə çıxış edirdilər. Yəni köhnə çəki dərəcələri artıq tarixə qovuşdu. Azərbaycan yığma komandası da bu yarışda təmsil olunurdu. Komandamız yeniyetmə və gənc idmançılardan təşkil olunmuşdu. Yeniyetmə atletlərimiz üçün nəticələri qənaətbəxş hesab etmək olar. İnanıram ki, onlar gələcək yarışlarda uğurla çıxış edərək bayrağımızı yüksəklərə qaldıracaqlar. Mən əminəm ki, ağırlıqqaldıranlarımız 2024-cü il Paris Olimpiadasında yüksək nəticələr qazana biləcəklər".

Məlumat üçün bildirək ki, Vahid Nəzərov ölkəmizi bu günə qədər 5 Olimpiya Oyunlarında təmsil edib. O, 3 olimpiadada - Atlanta-1996, Sidney-2000, Pekin-2008-də məşqçi kimi özə bacarığını nümayiş etdirib. 2010-cu ildə Sinqapurda təşkil olunan Yeniyetmələrin I Yay Olimpiya Oyunlarında, 2012-ci ildə isə London Olimpiadasında ölkəmizi hakim kimi təmsil edib. O, ağırlıqqaldırma üzrə müstəqil Azərbaycanı Olimpiya Oyunlarında təmsil edən ilk hakimdir. Bundan başqa paytaxtımızda təşkil olunan IV İslam Həmrəyliyi Oyunlarında ağırlıqqaldırma üzrə Hakimlər Kollegiyasının rəhbəri olub.

**Formula-1**

## *Montsa yarışlara ev sahibliyi etmək üçün maliyyə vəsaiti alıb*

Lombardiya İnzibati Vilayəti (İtaliya) Formula-1 Qran-Pri yarışlarını Montsada saxlamaq üçün növbəti 5 il ərzində əlavə 25 milyon avro pul ayırmağı öhdəsinə götürüb.

Kral yürüşləri mərhələsinin Montsada keçirilməsi barədə hazırda qüvvədə olan müqavilənin müddəti 2019-cu ilin sonunda başa çatır.

Lombardiyanın idman üzrə müşaviri Martina Kambiaqi deyib: "Bu, ilk addımdır, çünki müqavilənin müddətinin uzadılması və ən mühüm beynəlxalq idman hadisəsinin 2024-cü ilə qədər bizim ölkədə qalması bizim üçün prioritet məsələdir".




Qeyd edək ki, İtaliya Qran-Prisi Formula-1 yarışlarının 1950-ci ildə keçirilmiş birinci mövsümündən başlayaraq, 1980-ci il istisna olmaqla, həmişə Montsada keçirilib.

Bir qədər əvvəl yayılmış məlumata görə, 2020-ci ildə Formula-1 yarışlarının təqviminə Vyetnam və Hollandiya Qran-Priləri də əlavə olunacaq.

* * *

Formula-1 və Hanoy şəhərinin rəhbərlikləri bəyan ediblər ki, ilk Formula-1 Vyetnam Qran-Prisi 2020-ci ilin aprelində keçiriləcək.

Hanoyun "Vingroup" promouteri Qran-Pri keçirilməsinə dair çoxillik saziş imzalayıb. Sənədin şərtlərinə görə, Formula-1 mərhələsi şəhərin mərkəzi küçələrində keçiriləcək, trekin uzunluğu isə 5,565 kilometr təşkil edəcək.

Qran-Pri seriyalarının icraçı direktoru Çeys Keri deyib: "Biz sevinc hissi ilə bildiririk ki, Formula-1 Qran-Prisi Hanoyda keçiriləcək. Zəngin tarixə malik və qeyri-adi gələcəyi olacaq Hanoy dünyanın ən maraqlı şəhərlərindən biridir. Mən Formula-1 təqvimində bu mühüm tədbirin yer alacağını səbirsizliklə gözləyirəm".

Qeyd edək ki, Vyetnam Cənubi-Şərqi Asiyanın Formula-1 Qran-Prisinin keçiriləcəyi üçüncü ölkəsidir. Bundan əvvəl yarışlar Malayziya və Sinqapurda keçirilib.




*“Uşaq və gənclərin fiziki və mənəvi inkişafı”*

# Uşaq və gənc nəslin sağlamlığı günümüzün reallığıdır

Fiziki və mənəvi saflıq həm də sağlamlıq, vətənpərvər ruhda böyümə, xalqına, millətinə, vətəninə sadiqlik deməkdir. Mənəvi cəhətdən sağlam olan uşaq və gənc, eyni zamanda tərbiyə, əxlaq kimi yüksək dəyərləri özündə cəmləşdirir. İnsanların mənəvi və fiziki sağlamlığında mühüm rol oynayan idmanın geniş miqyasda yayılması, kütləviləşməsi və daha da inkişafı üçün uşaq və gənclər idmana fəal surətdə cəlb olunmalıdırlar. Heç kimə sirr deyil ki, idman insanın fiziki və mənəvi cəhətdən inkişafında, onun özünəinam hissinin formalaşmasında son dərəcə vacib rol oynayır. İdmanla məşğul olan hər bir kəs sağlam, qüvvətli, iradəli, öz gücünə inanan olur. Gələcəyimiz olan uşaq və gənc nəslin sağlamlığı, fəal həyat tərzi keçirməsi günümüzün reallığıdır. Dünyada yeniyetmələr arasında Olimpiya Oyunlarının, Yeniyetmələrin Olimpiya Oyunlarının, festivallarının, həmçinin digər möhtəşəm yarış və tədbirlərin təşkili də məhz bu məqsədə xidmət edir. Araşdırmalar göstərir ki, uşaq və gənc idmançıların təcrübə əldə etməsi, özünəinam hissinin artırılması üçün onların beynəlxalq yarışda iştirak etmələri vacib məsələlərdəndir. Bu məqsədlə dünyada bir sıra idman tədbirləri həyata keçirilir. Ölkəmizdə hərtərəfli dövlət qayğısı ilə əhatə olunan gənc idmançılarımız da bu cür tədbirlərdə öz güclərini sınayırlar. Uşaq və gənc idmançılarımız heç də böyükyaşlı idmançılardan fərqlənmir, mötəbər yarış və beynəlxalq turnirlərdə öz sözlərini layiqincə deyirlər. Bunun bariz nümunəsi isə Yeniyetmələrin Yay Olimpiya Oyunları ilə bağlıdır. Böyüklərin yarışında olduğu kimi, uşaq və yeniyetmə idmançılarımız da müxtəlif yarışlarda iştirak edərək bu Oyunlarda çıxış etmək hüququ qazanırlar. Ümumiyyətlə, Yeniyetmələrin Yay Olimpiya Oyunları Beynəlxalq Olimpiya Komitəsinin dəstəyi və himayəsi altında 14-18 yaşlı idmançılar arasında keçirilir. İdman və Olimpiya Oyunlarının tarixinə qızıl hərflərlə yazılan bu olimpiadada yeniyetmələr dostluq, qardaşlıq, biri-birinə hörmət, məhəbbət nümayiş etdirirlər. Onlar bu yarışlarda öz iştirakları ilə sübut edirlər ki, idman ayrı-ayrı xalqların, dövlətlərin arasında sülh, əməkdaşlıq, mehriban münasibət yaradan bir qüvvədir. Azərbaycan idmançılarının bu yarışda çıxışı 2010-cu ildə Sinqapurda keçirilən Yeniyetmələrin I Yay Olimpiya Oyunlarına təsadüf etdi. Bu mötəbər idman bayramı yeniyetmə idmanı tarixində ilk dəfə idi ki, təşkil olunmuşdu. Olimpiadaya Azərbaycan idmançıları ciddi və məsuliyyətlə hazırlaşmışdılar. Sinqapurda ölkəmizin idman şərəfini 6 idman növündə 12 idmançı qorumuşdu. Təmsilçilərimiz güləş, ağırlıqqaldırma, boks, taekvondo, kanoe və cüdo idman növlərində bacırqlarını nümayiş etdirmişdilər. Azərbaycanın güləşçiləri İlqar Abdulov və Qurban Qurbanovun rəhbərliyi altında Sinqapura 5 güləşçi ilə yollanmışdı. Həmin Oyunlarda pəhləvanlarımızın hər biri vətənə medalla qayıtmışdılar. Yunan-Roma güləşçiləri Murad Bazarov və Elman Muxtarov, sərbəst güləşçi Əli Məhəmmədəbirov və qadın güləşçisi Patimat Baqomedova qızıl medal qazanmışdılar. Kənan Quliyev isə yalnız finalda məğlub olaraq gümüş medala layiq görülmüşdü. Ağırlıqqaldırma yarışlarında isə həmin vaxt Azərbaycanın idman şərəfini Nicat Rəhimov qorumuşdu. 69 kq çəki dərəcəsində yarışan Nicat Rəhimov 295 kq nəticə ilə qızıl medala sahib çıxmışdı. Daha 2 medalı isə Azərbaycana boksçularımız Salman Əlizadə və Elvin İsayev qazandırmışdı. Azərbaycan boksçuları yalnız finalda məğlub olaraq gümüş medala layiq görülmüşdülər. Ümumi olaraq Sinqapurda 8 medal (5 qızıl və 3 gümüş) qazanan Azərbaycan medal sıralamasında 11-ci yerə layiq görülmüşdü. Yenyietmə idmançılarımızın Asiyada keçirilən mötəbər yarışda uğurları dövlətimiz tərəfindən layiqincə qiymətləndirilmişdi. Belə ki, Yeniyetmələrin I Yay Olimpiya Oyunlarından sonra Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyev olimpiyaçıları qəbul etmişdi. Ölkə başçısının Sərəncamına əsasən onlara mükafatlar təqdim olunmuşdu. Yeniyetmə idmançılarımızın əldə etdikləri uğurlardan sonra ölkədə idmana olan maraq bir qədər də artmağa başladı. Nəticədə valideynlər öz övladlarını müxtəlif idman bölmələrinə yazdırdılar. İllər ötdükcə idman sahəsində yeni perspektivlər, yeni idmançılar üzə çıxdı. Qeyd etmək istərdik ki, Sinqapur Olimpiadası yeniyetmə idmançılarımız üçün ciddi, yeni nəsil üçün bir stimul xarakteri daşımağa başladı.




## Qazanılan qələbələr uşaqların fiziki və mənəvi tərbiyəsində əhəmiyyətli rol oynayır

Aparılan müşahidələr göstərir ki, Olimpiya Oyunlarında, beynəlxalq turnirlərdə qazanılan ardıcıl qələbələr uşaq və gənclərimizin fiziki və mənəvi tərbiyəsində əhəmiyyətli rol oynayıb. Bu uğurlar da yeni nəslin idmana üstünlük verməsinə müsbət şərait yaradıb. Təkcə paytaxtımızda deyil, bölgələrimizdə də idmanın kütləviliyi nəzərəçarpacaq dərəcədə artıb. Sinqapurda nəticə göstərən idmançılarımız arasında bölgə təmsilçiləri də var idi. Bölgələrimizdə uşaq və gənclərin müxtəlif idman növlərinin sirlərinə daha həvəslə yiyələnməsi, bəlkə də, bu amillə bağlı idi. Sinqapur Olimpiadasından sonra yeniyetmə idmançılarımızın növbəti böyük uğuru Nankində reallaşmışdı. 2014-cı ildə Azərbaycan idmançıları ikinci dəfə Yeniyetmələrin Yay Olimpiya Oyunlarında iştirak etmişdilər. Komandamız Sinqapur Olimpiadası ilə müqayisədə bu dəfə 21 idmançı ilə 9 idman növündə qüvvəsini sınamışdı. Avqustun 16-dan 28-ə qədər Çin Xalq Respublikasının Nankin şəhərində təşkil olunan yarışlarda Azərbaycan idmançıları 12 medal qazanmışdılar. Yarışların birinci günündə cüdoçularımz Natiq Qurbanlı və Leyla Əliyeva, həmçinin taekvondoçumuz Cerən Özbək finalda məğlub olaraq gümüş medala sahib çıxdılar. Komandamız növbəti medalını yarışların 4-cü günü əldə etmişdi. Taekvondoçumuz Səid Quliyev finalda Almaniya idmançısına qalib gələrək, fəxri kürsünün ən yüksək pilləsində yer almışdı. Həmin gün, həmçinin akademik avarçəkmə idmanında mübarizə aparan Boris Yotov Azərbaycan yığma komandasının aktivinə gümüş medal yazdırmışdı. Bu medal Azərbaycanın akademik avarçəkmə idmanında əldə etdiyi birinci medal idi. Olimpiya Oyunlarının son üç günü isə Azərbaycan üçün daha uğurlu olmuşdu. Güləşçilər İslambəy Dadov, Teymur Məmmədov və İqbal Hacızadə bütün rəqiblərinə qalib gələrək, ölkəmizə qızıl medallar qazandırmışdı. Cabbar Nəcəfov və Leyla Qurbanova isə yalnız finalda məğlub olaraq gümüş medalla kifayətlənmişdilər. Daha 2 medalı ölkəmizə atletika yarışlarında mübarizə aparan Nazim Babayev və boksçu Rüfət Hüseynov qazandırmışdı. Nazim Babayev və Rüfət Hüseynov müvafiq olaraq, bürünc və qızıl medala layiq görülmüşdülər. Beləliklə, Azərbaycan idmançıları Nankin Olimpiadasını ümumilikdə 12 (5 qızıl, 6 gümüş və 1 bürünc) medalla başa vurmuşdular. Azərbaycan bu nəticə ilə dünyanın 201 ölkəsi sırasında 10-cu yerə sahib olmuşdu. Bu Azərbaycan idmanı tarixində yeni bir səhifə idi.

Bir vaxtlar Azərbaycan idmançılarının uğurlarını televiziya vasitəsilə izləyən uşaqlar, bu uğurlardan həvəslənib, həmin nailiyyətləri qazanmaq üçün idmana gəlməyə başladılar. Necə deyərlər, özləri də bu uğurların bir parçasına çevrildilər. Bu məsələ özünü Cənubi Amerikada keçirilən Oyunlarda təsdiq etməyə başladı.

Bu ilin əsas idman hadisələrindən biri Cənubi Amerikada, Argentinanın paytaxtı Buenos-Ayresdə təşkil olunan Yeniyetmələrin III Yay Olimpiya Oyunları idi. Argentinanın paytaxtı Buenos-Ayresdə keçirilən Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında dünyanın 206 ölkəsindən 4 minə yaxın idmançı 32 idman növündə qüvvəsini sınadı. Yarışların keçirilməsi əsasən dörd ərazi-Urban, Yaşıl, Teknopolis və Olimpiya parkları üzrə planlaşdırılmışdı. Azərbaycan Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında 17 idmançı ilə təmsil olundu. Komandamız bu yarışlarda cüdo, güləş, taekvondo, boks, gimnastika, üzgüçülük, atletika, ağırlıqqaldırma, stolüstü tennis üzrə yarışlarda mübarizə apardı. Milli komandamız Buenos-Ayres-2018-də 3-cü qızıl (1 qızıl medal gimnastika idman növündə qarışıq komanda tərkibində), 1-i gümüş və 3-ü bürünc olmaqla 6 medal qazandı. Qızıl medalları Azərbaycanın aktivinə cüdoçu Vüqar Talıbov (66 kq) və sərbəst güləşçi Turan Bayramov (65 kq) yazdırdılar. Ağırlıqqaldırma yarışında çıxış edən Tərmenxan Babayev (85 kq) Olimpiadanın gümüş medalına sahib oldu. Bürünc medallara isə taekvondoçu Cavad Ağayev (63 kq), boksçu Nurlan Səfərov (60 kq) və güləşçi Şahanə Nəzərova (43 kq) layiq görüldülər. Bədii gimnastımız Yelizaveta Luzanın Olimpiadada qarışıq komandanın tərkibində qazandığı qızıl medal millimizin aktivinə yazılmayıb. Beynəlxalq Olimpiya Komitəsinin qərarına əsasən onun medalı ümumi sıralamada komandamızın hesabında göstərilməyib. Beləliklə, Azərbaycan milli komandası Olimpiadanın medal sıralamasında 33-34-cü yerləri bölüşüb.

## “Həvəsli olmaq üçün əlavə stimul tələb olunurdu”

Buenos-Ayresdə mükafat qazanan idmançılarla müsahibələr zamanı bizə məlum oldu ki, atletlərimizin hər biri onlardan əvvəl ölkəmizə medal qazandıran idmançılardan örnək götürüblər. Buenos-Ayres-2018-də ölkəmizə qızıl medal qazandıran Vüqar Talıbov idmana gəlişində və cüdoya maraq göstərməsində Elnur Məmmədlinin Pekin-2008 Yay Olimpiya Oyunlarının qalibi olmasının böyük rolu olduğunu bildirib: “Ailəmizdə heç kim idmanla məşğul olmayıb. Lakin valideynlərimin idmana marağı böyük olub. İdmana, əvvəlcə, Respublika Olimpiya İdman Liseyində başlamışam. Düzünü desəm, əvvəllər mənim cüdoya o qədər də həvəsim olmayıb. Həmişə istəmişəm ki, məşhur futbolçu olum. Buna görə də futbola böyük marağım var idi. Elə oldu ki, futbol bölməsinə yazılmağa gedəndə futbol zalının qapısının bağlı olduğunu gördüm. Cüdo zalının isə qapısı açıq idi, məşqlər də öz qaydasında davam edirdi. Yəqin ki, bu da təsadüf imiş. Həyat özü məni doğru olan istiqamətə yönəltdi. Görünür, qismət məni o qapıda gözləyirmiş. Həmin ərəfədə ətrafımda olan insanlar mənə cüdo bölməsinə yazılmağı məsləhət gördülər. Beləcə, cüdo məşqlərinə başladım. Məşqlərimi beləcə davam etdirirdim. Amma daha həvəsli olmaq üçün əlavə stimul tələb olunurdu. Həmin ərəfədə cüdoçumuz Elnur Məmmədli Olimpiya Oyunlarında qızıl medal qazanmışdı. Onun bu uğuru mənim üçün stimul oldu. Özü-özlüyümdə fikirləşirdim ki, mən də cüdo ilə məşğul oluram. Deməli, böyük uğurlara doğru ilk addımımı atmışam. Qalır istək və gərgin məşqlər. Bildiyimə görə, Elnur Məmmədli də elə Respublika Olimpiya İdman Liseyinin yetirməsi olub. Olimpiya çempionu ilə mənim aramda eyni təsadüflər yaranmışdı. Etiraf edirəm ki, Elnur Məmmədlinin Olimpiya çempionluğu və digər cüdoçularımızın qələbələri məni cüdoya bağladı, bu idman növünü mənə sevdirdi. Bundan sonra artıq məşqlərə daha da həvəslə, istəklə yanaşmağa başladım. Beləliklə, bu idman növünün sehrinə düşdüm. Qarşıma məqsəd qoydum ki, mən də gələcəkdə Elnur Məmmədli kimi Olimpiya çempionu olub, uğurlu nəticələrə yiyələnim. Bunun üçün isə təbii ki, çoxlu məşq etmək və məşqçilərin dediyi hər bir tapşırığa əməl etmək lazım idi”.

Vüqar Talıbovla yanaşı, Buenos-Ayres-2018-in gümüş medalçısı Tərmenxan Babayev də kumiri sayəsində idmanın ağırlıqqaldırma növünə maraq göstərib. 2002-ci il yanvarın 8-də Naxçıvanın Şərur rayonunun Çomaxtur kəndində anadan olan Tərmenxan idmana erkən yaşlarından maraq göstərib. Onun ailəsi demək olar ki, idmana bağlı olub. Atası və əmiləri güləş və ağırlıqqaldırma növləri ilə məşğul olublar. Tərmenxan Babayevin sözlərinə görə onun idmana gəlişi əmisinin sayəsində olub: “2012-ci ildə əmimin vasitəçiliyi ilə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin nəzdində Şərur rayonunda fəaliyyət göstərən ağırlıqqaldırma bölməsinə yazıldım. Balaca olduğum üçün əvvəllər fitneslə məşğul olurdum. Bir müddətdən sonra məşqçilərin qərarı ilə ağırlıqqaldırma məşqlərinə başladım. Hər bir idmançının məşğul olduğu idman növündə özünün sevimli kumiri olur. Məndə də bu belə idi. Bu növə sevgim əmilərimin və Nizami Paşayevin sayəsində yaranıb. Onun beynəlxalq yarışlardakı uğurlu çıxışı, idmançı əzmkarlığı məndə bu növə böyük maraq yaratdı. Bir gün ağırlıqqaldırma üzrə Azərbaycan yığma komandası Naxçıvana təlim-məşq toplanışına gəlmişdi. Təlim-məşq zamanı yığma komandanın məşqçiləri mənim fiziki hazırlığımı yoxladılar. Elə oldu ki, məşqçilər məndən razı qaldılar və məni özləri ilə Bakıya aparmağı qərara aldılar. Beləcə, həmin gündən mənim idman karyeramda yeni mərhələ başladı. Əgər yığma komandanın məşqçiləri məni həmin vaxtı Bakıya gətirməsə idilər, kim bilir, bəlkə də bu gün ağırlıqqaldırma idman növündə bu pilləyə qədər gəlib çıxmazdım. İdmana gələndən həmişə qarşıma bir məqsəd qoymuşam: idman rejiminə riayət etmək və böyük rəqabətdən qalib ayrılmaq. Çalışacağam ki, bundan sonra da bu məsuliyyəti hiss edib, yeni nəticələr üçün mübarizə aparım”.

## Medal qazanan yeniyetmə idmançılar gələcək nəsilə nümunədir

Bu qələbələr bir daha onu göstərdi ki, Buenos-Ayres Olimpiadasında Azərbaycana medal qazandıran yeniyetmə idmançıların parlaq gələcəyi var. Qazanılan bu medallar həm də ölkəmizdə federasiyaların uğurlu fəaliyyətinin bariz nümunəsidir. Təsadüfi deyil ki, Gənclər və İdman Nazirliyi cəmiyyət və klublarla sıx əməkdaşlıq edir. Digər Olimpiya Oyunlarından fərqli olaraq bu dəfəki Olimpiadada komandamızın əldə etdiyi 7 medalın hamısı müxtəlif idman növləri üzrədir. Bu Oyunları digərlərindən fərqləndirən digər başlıca cəhət isə komandamızın yeni idman növlərində təmsil olunması idi. Buenos-Ayresdə təşkil olunan Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında komandmız gimnastika və stolüstü tennis kimi idman növlərində də təmsil olunurdu. Bu isə Azərbaycanda idmanın son illərdə böyük inkişaf yolu keçdiyinin sübutudur. Məhz federasiyalarda görülən əməli işlərin nəticəsində bu nailiyyətlər əldə olundu. Belə ki, uşaq və gənc idmançıların təlim-məşqlərinin müntəzəm təşkili, habelə onların müxtəlif səviyyəli yarışlarda iştirakı federasiyalar tərəfindən təmin edilib. Mütəxəssislər hesab edirlər ki, uşaq və gənc idmançılar nə qədər çox yarışda iştirak etsə, onların təcrübəsi də bir o qədər artacaq. Təlim-məşq toplanışları və yarışlar Olimpiya idman komplekslərində keçirilir. Komplekslərdə lazımi şəraitin olması yarışların yüksək səviyyədə keçirilməsinə gətirib çıxarır. Kiçikyaşlı uşaqlar arasında keçirilən zona yarışları göstərir ki, bu yaş qrupu üzrə idmançılarda irəliləyiş çoxdur. Qeyd olunan faktlar bölgələrdə uşaq və gənclərin fiziki və mənəvi inkişafına müsbət təsir edib. Sevindirici haldır ki, bu gün Azərbaycanın əksər bölgələrində uşaq və gənclər idmanın müxtəlif növlərinə böyük həvəs göstərirlər. Yaradılan şərait idmançıların mötəbər yarışlara vəsiqə əldə etməsinin başlıca təminatçısıdır. Belə ki, şərait, baza varsa, qələbə də var. Yeniyetmə idmançılarımızın belə yarışlarda qazandıqları nəticələr bir daha onu göstərir ki, Azərbaycan idmanının gələcəyi etibarlı əllərdədir.

***Azər Əlizadə***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*



# UEFA nümayəndələri Bakıya səfər ediblər

2019-cu il mayın 29-da Bakıda keçiriləcək futbol üzrə UEFA Avropa Liqası turnirinin final oyunu ilə əlaqədar müxtəlif fəaliyyət sahələri üzrə nümayəndə heyətlərinin paytaxtımıza mütəmadi səfərləri davam edir.

Final qarşılaşmasında UEFA ilə rəsmi tərəfdaş olan şirkətlərin təmsilçilərinin oyunun keçiriləcəyi Bakı Olimpiya Stadionu, həmçinin final matçı ilə bağlı təşkil olunacaq müxtəlif tədbirlərin məkanları ilə tanışlıq məqsədilə paytaxtımıza səfərdə olublar.

Səfər çərçivəsində Bakı Olimpiya Stadionunda keçirilən tədbirdə UEFA Avropa Liqasının layihə meneceri Andreas Şar, AFFA-nın baş katibinin müavini Sərxan Hacıyev, marketinq və sponsorluq şöbəsinin müdiri Tural Piriyev çıxış ediblər.

Sonra tədbir iştirakçıları Bakı Olimpiya Stadionunun ərazisinə tanışlıq xarakterli baxış keçiriblər.

Səfərin ikinci günü AFFA-nın baş katibi Elxan Məmmədovun iştirakı ilə nümayəndə heyəti final oyununun təşkilati işləri çərçivəsində keçiriləcək müxtəlif tədbirlərin məkanları ilə tanış olublar.

Sonda xatirə şəkli çəkdirilib.

# "Neftçi"nin yaşayan əfsanəsi -Kazbek Tuayev

***Deyirlər, alim olmaq asandır, insan olmaq çətin. Çətini isə hər kəs bacarmır, çünki buna gücü və ürəyi yoxdur. Azərbaycan futbolunun görkəmli simalarından biri, sözün əsil mənasında, gözəl insan Kazbek Tuayev çətini bacaran insanlardandır. O, öz nəcibliyi, alicənablığı və təvazökarlığı ilə hər kəsin ürəyində yuva qurmağı bacarıb. "Neftçi"nin yaşayan əfsanəsi, sürəti və manevr bacarığı, gözəl driblinqləri ilə azarkeşlərin sevimlisidir Kazbek Tuayev.***



Noyabrın 13-də veteran futbolçumuz Kazbek Tuayevin 78 yaşı tamam oldu. 1940-cı ildə Ələt qəsəbəsində anadan olan Tuayev Kazbek Əlirza oğlu Azərbaycan Respublikasının əməkdar məşqçisi, SSRİ-nin idman ustası, AFFA-nın İcraiyyə Komitəsinin üzvü, Azərbaycan Futbol Məşqçiləri İttifaqının sədri, İxtisaslaşdırılmış Uşaq-Gənclər Olimpiya Ehtiyatları Futbol Məktəbinin direktorudur. 2000-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Şöhrət" ordeninə layiq görülən Kazbek Tuayev futbolun inkişafında böyük işlər görmüş insanlardan biridir.

Kazbek müəllim futbol oynamağa Bakı "Lokomotiv"-inin yeniyetmələr komandasında başlayıb. Böyük futbolda ilk komandası isə Nalçik "Spartak"ı olub. 1961-ci ildə "Neftçi"yə " (1961-1973-cü illər) keçən Kazbek Tuayev sağ cinah hücumçusu mövqeyində çıxış edib. O, 1966-cı ildə "Neftçi"nin SSRİ çempionatında bürünc medal qazanmasında, eləcə də, 1964-cü ildə İspaniyada keçirilən Avropa çempionatında SSRİ yığmasının finala vəsiqə əldə etməsində xüsusi rol oynayıb.

Veteran futbolçumuz 1966-cı ildə 14 qolla "Neftçi"nin bombardiri kimi də tarixə düşüb. Kazbek Tuayev 1970-ci ildə bir neçə ay Vladiqafqaz "Spartak"ında oynadıqdan sonra 1972-ci ilə kimi "Neftçi"nin formasını geyinib. O, ümumilikdə, Bakı komandasının heyətində SSRİ-nin yüksək liqasında 58 qol vurub. 1963, 1966 və 1967-ci illərdə ölkənin 33 ən yaxşı futbolçusu siyahısında yer alıb. Müxtəlif illərdə SSRİ yığmasına cəlb olunan Kazbek Tuayevin ölkənin əsas komandasında 1967-ci ildə 3 oyun keçirdiyini də qeyd etməliyik. Kazbek Tuayevin adı 1998-ci ildə Moskvada nəşr olunmuş "Sovet futbolu 100 ildə" ensiklopediyasında da yer alıb. O, ictimaiyyət arasında aparılan sorğuya əsasən, Azərbaycanın XX əsrdə ən yaxşı futbolçularından biri seçilib.

Kazbek Tuayev, həm də yüksək nailiyyətlər qazanmış məşqçi kimi tanınıb. Təcrübəli mütəxəssis müxtəlif vaxtlarda Vladiqafqazın "Spartak", Lənkəranın "Xəzər", Bakının "Neftçi", "Tərəqqi" və "Azneftyağ", Tunisin "Klub Afrikan", Tovuzun "Turan" klublarını, həmçinin Azərbaycan millisini çalışdırıb. Onun rəhbərliyi altında 1994-cü ildə "Turan" (Tovuz), 1996 və 2004-cü illərdə isə "Neftçi" komandaları ölkə çempionluğunu qazanıblar. 1995-ci ildə Polşa ilə qolsuz heç-heçə edən, 1996-cı ildəsə İsveçrəyə 1:0 hesabıyla qalib gələn Azərbaycan millisi də rəsmi oyunlarda ilk xalını və ilk qələbəsini məhz Kazbek Tuayevin dövründə qazanıb. Tanınmış mütəxəssis 3 ilə yaxın Tunisdə məşqçilik edib. Məhz onun təşəbbüsü və fəal iştirakı nəticəsində 1984-cü ildə Azərbaycanda İxtisaslaşdırılmış Uşaq-Gənclər Olimpiya Ehtiyatı Məktəbi yaradılıb. Yarandığı gündən Kazbek Tuayevin rəhbərliyi altında fəaliyyət göstərən bu məktəb uşaq və yeniyetmə futbolunun inkişafı və kütləviliyi istiqamətində səmərəli fəaliyyət göstərir.

"Olimpiya dünyası" qəzetinin kollektivi və çoxsaylı oxucuları adından Kazbek Tuayevi təbrik edir, ona uzun ömür, həmişə belə cavan, gümrah qalmağı arzu edirik!.

***S.Zifiqızı***

## *Veteranlar yubileyi stadionda qeyd etdilər*

Noyabrın 15-də Azərbaycanın futbol veteranı Vəli Qasımovun 50 illik yubileyinə həsr olunmuş yoldaşlıq oyunu keçirilib.

"Bayıl Arena"da təşkil olunan oyun Azərbaycan futbol veteranlarından təşkil olunmuş "Veteranlar" komandası ilə Vəli Qasımovla müxtəlif ölkələrdə və klublarda birgə çıxış etmiş əcnəbi veteran oyunçulardan ibarət "Dostlar" kollektivi üz-üzə gəlib.

V.Qasımov ilk hissədə "Veteranlar", fasilədən sonra isə "Dostlar" komandasının heyətində yer alıb. Hər hissəsi 25 dəqiqədən ibarət olan matç 5:5 hesabı ilə başa çatıb. V.Qasımov hər iki komandanın heyətində fərqlənib.

Oyundan sonra Vəli Qasımov media nümayəndələrinə açıqlama verərək deyib: "Mənə dəstək olduqları üçün AFFA-ya minnətdarlığımı bildirirəm. Gözəl gün yaşadıq. Rusiya, Portuqaliya və İspaniyadan gələn dostlarıma da təşəkkürümü bildirirəm".

V.Qasımov UEFA Avropa Liqasının final matçının səfiri olmasından qürur duyduğunu bildirib: "Avropa Liqasının finalının Bakıda keçirilməsi çox yaxşı haldır. Fəxr edirəm ki, final matçının səfiriyəm".

## *"Qəbələ"nin nümayəndələri UEFA-nın forumunda*



İsveçrənin Nyon şəhərində UEFA Gənclər Liqasında çıxış edən klubların nümayəndələri üçün məşqçi forumu keçirilib. Tədbir Avropa Futbol Evində təşkil olunub. Tədbirdə yarışın ikinci mərhələsinə yüksələn "Qəbələ" klubunun təmsilçiləri də iştirak ediblər. "Qəbələ"nin futbol akademiyasının meneceri Nail Kərimov və U-19 komandamızın baş məşqçisi Emin İmaməliyev forum iştirakçıları arasında yer alıblar. Forumun ilk günündə müxtəlif mövzularda mühazirələr verilib, həmçinin iştirakçılar Hollandiyanın "Ayaks" klubundakı məşqçi metodologiyası, Fransa "Lion"unun akademiyasındakı təşkilati işlərin necə qurulması ilə tanış olublar. Nümayəndələr arasında UEFA Gənclər Liqası turniri ilə bağlı fikir mübadiləsi aparılıb. İlk gün qonaqlar arasında futbol matçı ilə yekunlaşıb.

Forumun ikinci günündə də tədbir iştirakçıları mühazirələr dinləyiblər. Mərasimə Avstriya "Zaslburq"unun baş məşqçisi Marko Rosenin mühazirəsi ilə yekun vurulub.

## *Azərbaycan Kuboku turnirinin püşkü atılıb*

Futbol üzrə Azərbaycan Kuboku uğrunda turnirin 2018-2019-cu il mövsümünün püşkü atılıb.

AFFA-nın inzibati binasında keçirilən mərasimdə yarışda iştirak edəcək 12 komandanın rəqibləri müəyyənləşib. Kubok uğrunda turnirdə Premyer Liqada çıxış edən 8 klubla yanaşı, I Divizionda mübarizə aparan 4 klub da iştirak edəcək.

Püşkatma mərasimində komandalar üç səbətə bölünüblər. Birinci səbətdə yer alan "Qarabağ", "Qəbələ", "Neftçi" və "Zirə" mübarizəyə dörddəbir finaldan başlayacaq. Püşk zamanı "Sumqayıt", "Keşlə", "Səbail" və "Sabah" ikinci, "Kəpəz", "Qaradağ Lökbatan", "Şüvəlan" və "Ağsu" klubları üçüncü səbətdə yer alıblar.

Püşkün nəticələrinə əsasən, dekabrın 6-da keçiriləcək səkkizdəbir finalda "Ağsu" - "Sabah", "Şüvəlan" - "Keşlə", "Sumqayıt" - "Qaradağ Lökbatan" və "Səbail" - "Kəpəz" görüşləri oynanılacaq. Səkkizdəbir finalda komandalar bir oyun keçirəcəklər.

Turnirin dörddəbir finalında "Qəbələ" klubu "Ağsu" - "Sabah", "Qarabağ" komandası isə "Şüvəlan" - "Keşlə" görüşlərinin qalibi ilə qarşılaşacaq. Dörddəbir finalın digər oyunlarında isə "Neftçi" komandası "Sumqayıt" - "Qaradağ Lökbatan", "Zirə" isə "Kəpəz" - "Səbail" matçlarında üstün olan tərəflə üz-üzə gələcək. Bu görüşlər dekabrın 15-16-da, cavab qarşılaşmaları isə dekabrın 19-20-də oynanılacaq.

Turnirin yarımfinal matçları aprelin 23-də, cavab oyunları mayın 1-də keçiriləcək. Final qarşılaşması isə mayın 19-da baş tutacaq.

Gənclər və İdman, Təhsil nazirlikləri, Milli Olimpiya Komitəsi və Azərbaycan Məktəb İdmanları Federasiyasının birgə təşkilatçılığı ilə keçirilən "Məktəblər arasında respublika çempionatı" çərçivəsində "Binəqədi Gənclər Evi" sosial xidmət müəssisəsində şahmat üzrə rayondaxili mərhələ yarışı keçirilib.

# Mərhələ yarışı başa çatdı

Yarışda rayonun 32 orta ümumtəhsil müəssisəsi iştirak edib.

283 nömrəli tam orta məktəbin komandası yarışın qalibi olub. 244 nömrəli tam orta məktəb ikinci, 83 nömrəli məktəb-lisey isə üçüncü olublar.

"Məktəblər arasında respublika çempionatı"nın keçirilməsində məqsəd şagirdlər arasında bədən tərbiyəsi və idmanı təbliğ etmək, sinifdənxaric və məktəbdənkənar fəaliyyət sahəsində ümumtəhsil məktəblərinin fəaliyyətlərini qiymətləndirmək, məktəblilərdən ibarət yığma komandanın heyətini müəyyənləşdirmək, idman növü üzrə qalib məktəblərin idmançılarının aidiyyəti beynəlxalq yarışlarda iştirakını təşkil etməkdir.

# *Milli Dirçəliş Gününə həsr edilmiş yarışlar keçirilib*



Noyabrın 17-18-də "Zirvə" Beynəlxalq İdman Klubu Sumqayıt MMC-nin idman zalında "17 noyabr-Milli Dirçəliş günü"nə həsr edilmiş ağır atletika üzrə 2003-cu il və daha kiçik təvəllüdlü oğlan və qızlar arasında şəhər birinciliyi keçirilib. Yarışda "Təhsil" Respublika İdman Mərkəzi Sumqayıt şəhər 1 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman-Şahmat Məktəbi və "Zirvə" idman klubunun 36 ağır atlet iştirak edib. İki gün gərgin idman mübarizəsi şəraitində davam edən yarışda müxtəlif çəki dərəcələri üzrə qaliblər müəyyənləşib.

Yarışın qalib və mükafatçıları şəhər Gənclər və İdman Baş İdarəsinin fəxri fərmanı, medal və kuboku ilə təltif olunublar.

# *Tələbələrin stolüstü tennis yarışlarına yekun vurulub*

"Gənclik" Tələbə İdman Cəmiyyəti Respublika Şurasının təşkilatçılığı ilə 2018-ci ilin oktyabr-noyabr aylarında orta təhsil müəssisələri tələbələri arasında respublika birinciliyi keçirilir. Birinciliyin təqvim planına idmanın 5 növü - şahmat, dama, stolüstü tennis, voleybol və basketbol (qızlar və oğlanlar) daxil edilib. Birinciliyə daxil olan stolüstü tennis üzrə yarış noyabrın 6-da Azərbaycan Dövlət Pedaqoji Kollecinin idman zalında keçirilib.



Oğlanlar arasında keçirilən yarışda 6 komanda qalib adı uğrunda mübarizə aparıb. Gərgin mübarizə şəraitində keçən yarışdaAzərbaycan Dövlət Pedaqoji Kollecinin komandası birinci yerə layiq görülüb. Bakı İdarəetmə və Texnologiya Kolleci ikinci, 2 saylı Bakı Baza Tibb Kollecinin komandası isə üçüncü yeri tutub.

6 komandanın mübarizə apardığı qızların yarışında isə Bakı 2 saylı Tibb Kollecinin yetirmələri fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Azərbaycan Dövlət Pedaqoji Kolleci ikinci, Bakı İdarəetmə və Texnologiya Kollecinin komandası isə üçüncü yerə sahib çıxıb.




# *Azyaşlı karateçilərimiz uğur qazandı*

Noyabrın 18-də Azərbaycan Respublikası Kontakt Karate Federasiyasının yaranmasının 25 illiyi bağlı açıq çempionat keçirilib.

Yarışda dünya çempionu, idman ustası və BKA -nın prezidenti Vüsal Abdullazadənin rəhbərliyi ilə Bakı Karate do Akademiyasının idmançılarından 8 nəfər iştirak edərək yüksək nəticə qazanıblar.

Onlardan İbrahim İbayev, Zaur Mirzəzadə, Nihat Növşadzadə, Mühəmməd Nəbizadə və Xəlilzadə qızıl medal qazanıblar. Murad Hüseynzadə yalnız finalda məğlub olaraq ikinci yerə layiq görülüb. İlqar Əliyev və Allahverdi Salıfov isə açıq çempionatın bürünc mükafatına layiq görülüblər.

Bölgə idmanı

## Ağsu məktəbliləri basketbol yarışlarında güclərini sınayıblar

Ağsuda rayon gənclər və idman idarəsinin və təhsil şöbəsinin birgə təşkilatçılığı ilə məktəblilər arasında respublika çempionatının proqramına daxil olan basketbol idman növü üzrə rayon birinciliyi keçirilib. 108 nəfər məktəblinin iştirak etdiyi, 9 ümumtəhsil tam orta məktəb komandası arasında keçirilən yarışlar iki gün davam edib. Gərgin idman mübarizəsi şəraitində keçən qarşılaşmalarda A.Nadirov adına şəhər 1 saylı məktəb-liseyin komandası I yeri tutub. II və III yerləri müvafiq olaraq şəhər 3 saylı tam orta və Cəlayir kənd tam orta məktəblərin komandaları qazanıblar. Qalib komandalar rayon təhsil şöbəsinin diplomları ilə təltif olunublar.

* * *

Xaçmaz Olimpiya İdman Kompleksində payız çağırışı ilə əlaqədar "Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyü üzrə keçirilən respublika birinciliyinin qalibləri müəyyənləşib.

Çağırışçı gəncləri Vətənin müdafiəsinə mənəvi və fiziki cəhətdən hazırlamaq, gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin yüksəldilməsi məqsədilə keçirilən yarışda 15 komanda qalib adı uğrunda mübarizə aparıb.

Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə keçirilən birinciliyin final mərhələsində iştirakçılar 100 və 2000 metr məsafəyə qaçış, qumbara atma, turnikdə dartınma və güllə atıcılığı üzrə yarışlarda qüvvələrini sınayıblar.

Gərgin mübarizə şəraitində keçən yarışda şəhər komandaları arasında Naxçıvan, Bakı, Sumqayıt, rayon kollektivləri arasında isə Biləsuvar, Qusar və Goranboy təmsilçiləri müvafiq olaraq ilk yerləri qazanıblar.

Qaliblərə Gənclər və İdman Nazirliyinin diplom və qiymətli hədiyyələri təqdim olunub.

* * *

Astarada atletika, voleybol, basketbol idman növləri üzrə məktəblər arasında respublika çempionatının rayondaxili mərhələləri keçirilib.

Yarış Olimpiya İdman komplekslərindən və idman bazalarından səmərəli istifadə edilməsi, ümumtəhsil məktəbləri idman sahəsində sinifdənxaric və məktəbdənkənar fəaliyyətinin qiymətləndirilməsi, qalib məktəblərin komandalarının respublikanın zona və final mərhələsində iştirakını təmin etmək məqsədi ilə təşkil olunub.



Təngərüd kənd tam orta məktəbinin idman meydançasında atletika idman növü üzrə yarış keçirilib. Yarışda 27 tam orta məktəbin 5-7-ci sinif qız və oğlan şagirdləri 100, 200 və 400 metr məsafədə güclərini sınayıblar. Ümumi nəticəyə görə I yerə Astara şəhər 3 saylı tam orta məktəbin komandası layiq görülüb. Kijəbə qəsəbəsinin məktəbliləri ikinci, Siyəkü kənd tam orta məktəbin komandası isə üçüncü yeri tutub.

Çempionatın voleybol üzrə yarışları Astara şəhər 2 saylı tam orta məktəbin idman zalında təşkil olunub. Yarışda qızlardan ibarət 20 məktəb komandası mübarizə aparıb. 2004-2006-cı illər təvəllüdlü məktəbli qızlardan ibarət komandaların yarışında I yerə Kijəbə qəsəbə, II yerə Şəhər 2 saylı, III yerə Motlayataq kənd tam orta məktəbin komandaları layiq görülüblər.

Çempionatda 2001-2003-cü illər təvəllüdlü oğlanlardan ibarət basketbolçuların yarışında 16 məktəb komandası mübarizə aparıb. Yarışın sonunda I yerə Səncərədi kənd tam orta məktəbin komandası layiq görülüb. Ərçivan qəsəbəsinin məktəbliləri ikinci, 3 saylı tam orta məktəbin komandası isə üçüncü yeri tutub.

*"Əlilliyi olan şəxslər: fiziki məhdudiyyətdən sosial inteqrasiyaya"*

# "Əlilliyi olan şəxslər: fiziki məhdudiyyətdən sosial inteqrasiyaya"

***Cəmiyyət insanların birliyi olub, özündə cəmiyyətin siyasi, iqtisadi, sosial və mədəni həyatını birləşdirən bir strukturdur. Bəli, bu cəmiyyətdə insanlar sıx yaşamalı, bir-birinə dəstək olmalıdırlar. Lakin cəmiyyətdə fiziki imkanları məhdud olan insanları da kənarda tutmaq olmaz. Onlar da bu strukturun əsasını təşkil edir.***

***İstedad tanrı vergisidir. Hər birimizin daxilində ona rast gəlmək olar. Lakin onu zamanında araşdırıb, üzə çıxarmaq lazımdır. Fiziki imkanların məhdudluğuna baxmayaraq, mənəvi sağlamlıqla cəmiyyətin bir parçasına çevrilmək olar.***

Biz hansısa mövzuya müraciət edəndə tanınmışlardan, dünyada hamıya məlum olan məsələlərdən sitatlar gətiririk. Mövzumuz "Əlilliyi olan şəxslər: fiziki məhdudiyyətdən sosial inteqrasiyaya" ilə bağlıdır.

Gəlin, yazının əvvəlində fiziki məhdudiyyəti olan amma, sosial inteqrasiyaya yiyələnən insanlardan danışaq.

Dünya şöhrətli bəstəkar Lüdviq van Bethoven 1796- cı ildə 26 yaşında eşitmə qabiliyyətini itirməyə başlayır. 1802-ci ildə bəstəkar tamamilə kar olur. Həmin ildə isə o, özünün ən məşhur bəstəsini, qəhrəmanlıq simfoniyası olan "Fedeliyo" operasını yaradır. O, bu vəziyyətdə 30-dan artıq əsər müəllifi olur.

Dünya şöhrətli Stiven Hokin dünyaya sağlam gəlmişdi. Gənc yaşlarından həkimlər ona aşağı ətraf iflici diaqnozu qoyurlar. Xəstəlik onu nəinki tezliklə əlil arabasına məhkum etdi həmçinin vəziyyəti tamamilə kritik həddə çatdı. Əməliyyatdan sonra isə danışmaq qabiliyyətini də itirdi. O, yalnız sürünür və əlaqə yaratmaq üçün üz mimikalarından istifadə edirdi.

Bütün bunlar Hokinə dünyanın ən oxumuş, ağıllı insanı olmağa mane olmadı. O, cəmiyyətdən kənarda, öz laboratoriyasında elmi fəaliyyətlə məşğul olur, kitab yazır, insanlara ötürürdü. Hətta bir neçə il bundan əvvəl, 71 yaşında Hokin çəkisizliyi təqlid edən xüsusi uçuşda özünü sınamışdı.

Ekspedisiya zamanı 20 yaşlı alpinist Mark Engelsin ayaqlarını don vurmuşdu. Buna baxmayaraq o, öz arzusundan əl çəkməmişdi. Yeni zelandiyalı alpinist 2006-cı ildə Everest yüksəkliyini fəth etmişdi.

İrlandiyalı Kristi Braun məhdud imkanlarla doğulmuşdu. Həkimlər ona serebral iflic diaqnozu qoymuşdu. Uşaq nə gəzə, nə də yerindən tərpənə bilirdi. Anasının köməyi ilə o, yazmağı və oxumağı öyrənir. Braun yalnız sol ayağı ilə özünü idarə edirdi. Sol ayağı ilə yazıb və çəkirdi. O, əvvəlcə yaradıcılığa təbaşir, fırça ilə başlayır, makina və qələmlə yazmağı da öyrənir. Nəticədə Braun tanınmış rəssam və novellaçı olur. Hətta onun haqqında "Mənin sol ayağım" adlı film də çəkilir.

Hollivud aktyoru, rejissoru, prodüseri və ssenaristi Tom Kruzun nitqi qüsurlu olur. Onun bu qüsuru məktəbin ilk günlərində qeydə alınmışdı. Müəllimləri oxuya bilməyən bu qəribə oğlanı məktəbdən kənarlaşdırmaq qərarına gəlirlər. Şagirdlər isə onu axmaq adlandırırdılar. Ailəsi bir şəhərdən digər şəhərə tez-tez köçdüyü üçün bu xoşagəlməz hadisə hər dəfə Tom üçün təkrarlanırdı. Bitib tükənməyən məktəbdənkənar məşğələlərdə Tom hərflər arasındakı fərqi görmür və söz düzəldə bilmədiyi üçün oxuduqlarını anlaya bilmirdi. Nitq qüsuruna baxmayaraq Tomu təbiət aktyorluq istedadı ilə mükafatlandırdı. O, bütün dünyada tanınaraq, azarkeşlər əldə etdi.

Uşaq yaşlarından əlil olmuş məşhur aktyor Silvester Stallone əfsanəvi "Rokki" filminə görə "Oskar" mükafatçısı idi. Çətin doğuş yüngül zədə almış gələcək kinoulduzun xarici görünüşündə iz buraxmışdı. Onun hərəkətsiz çənəsi, demək olar ki, uydurma dodağı və dili sonradan yaşıdları arasına gülüşə səbəb olmuşdu.

Bəlkə də, elə bu qüsuru Stalloneni siyahıda olan əsl qəhrəman kişi obrazlarını yaratmağa sövq etmişdi. "Rokki", "Rembo", "Kobra", "Sönməz" və digər filmlərlə dünya şöhrəti qazanmışdı.

Bütün bu məşhurları misal çəkməkdə əsas məqsədimiz odur ki, onlar da zamanında xəstəliyə düçar olsalar da, ümidlərini itirməyiblər. Cəmiyyət onlarla ayaqlaşıb, onlardan yararlanmışdır.



### Əlillərin sosial müdafiəsi, onların cəmiyyətə inteqrasiyası ildən-ilə gücləndirilib

Təqvimin 365 günü bir sıra yadda qalan hadisələrlə əlamətdardır. Belə ki, 3 dekabr dünyada "Beynəlxalq əlilliyi olan şəxslər günü" kimi qeyd olunur. İndi dünya əhalisinin təxminən 10 faizini fiziki cəhətdən qüsurlu insanlar təşkil edir. Əlilliyi olan insanların 20 faizi inkişaf etməkdə olan ölkələrdə yaşayır. Azərbaycanda dövlət tərəfindən bu qəbildən olan insanların sosial rifahının yüksəldilməsi istiqamətində mühüm addımlar atılır, bu insanların sosial təminatı ildən-ilə daha da yaxşılaşır. Azərbaycan BMT Baş Məclisi tərəfindən 2006-cı ildə qəbul edilmiş "Əlillərin hüquqları haqqında" Konvensiyaya qoşulub. Ölkəmizdə əlillərin sosial müdafiəsi ilə bağlı həyata keçirilən geniş miqyaslı tədbirlərin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. İnsan amilini xüsusi diqqətdə saxlayan görkəmli dövlət xadiminin Azərbaycana rəhbərliyi dövründə əlillərin sosial müdafiəsi, onların cəmiyyətə inteqrasiyası ildən-ilə gücləndirilib. Ölkədə əlillərin sosial müdafiəsi ilə bağlı dövlət proqramı hazırlanıb. Həmin proqramda əlilliyin qarşısının alınması, əlillərin reabilitasiyası və sosial müdafiəsi haqqında qanunun bütün müddəaları öz əksini tapıb. Bakıda və regionlarda əlillər üçün reabilitasiya mərkəzləri, protez-ortopedik müəssisələr yaradılıb. Ulu öndər Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların ailələrinə, fiziki sağlamlığını itirən insanlara, onların problemlərinə də böyük həssaslıqla yanaşıb, əlillərin, müharibə veteranlarının, şəhid ailələrinin mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində əhəmiyyətli işlər görüb. Son illərdə ölkədə əlilliyi olan şəxslərlə bağlı bərpa-müalicə sisteminin maddi-texniki bazasının gücləndirilməsi və müasir tələblərə uyğun təkmilləşdirilməsi üçün məqsədyönlü işlər aparılır. Bu işlərdə əsas məqsədlərdən biri də əlilliyi olan şəxslərə münasibətdə tibbi yanaşma ilə bərabər, sosial modelin tətbiqinə, həmin şəxslərin sosial reabilitasiya potensialı nəzərə alınmaqla onun reallaşmasına şərait yaradılmasıdır.

Ümummilli lider Heydər Əliyevin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev əlilərlə bağlı bir sıra sərəncamlar imzalayıb. Məhz ölkə başçısının diqqət və qayğısı nəticəsində fiziki imkanları məhdud olan vətəndaşlar üçün lazımi şərait yaradılıb.

Prezident İlham Əliyevin 2015-ci il martın 16-da imzaladığı Fərmanla Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi Sosial Ekspertiza və Reabilitasiya Xidməti yaradılıb. Respublika Əlillərin Bərpa Mərkəzi hazırda həmin xidmətin tərkibində fəaliyyət göstərir. Mərkəz yarandığı gündən bu günədək respublikada olan bütün əlillərin, o cümlədən Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizədə sağlamlıqlarını itirmiş Qarabağ müharibəsi əlillərinin, 20 Yanvar, Çernobıl, Əfqanıstan hadisələri zamanı əlil olmuş insanların müayinə və müalicəsində yüksək peşəkarlıq göstərir. Mərkəzdə fizioterapiya və psixoloji korreksiya, tibbi-sosial reabilitasiya və funksional diaqnostika şöbələri var.

Qarabağ müharibəsində sağlamlığını itirənlərin və şəhid ailələrinin problemlərinin həlli ölkədə həmişə diqqət mərkəzində saxlanılıb. Prezident İlham Əliyevin göstərişləri və sərəncamları əsasında bu kateqoriyadan olan vətəndaşların mənzillə təmin olunması məqsədilə son bir neçə ildə paytaxtda və regionlarda yeni çoxmənzilli yaşayış binaları, o cümlədən fərdi evlər tikilib.

### "Tanrı mənim vasitəmlə onlara əlçatmaz bir üfüqü bəxş etsin"

Bir dəfə Bakının tanınmış ticarət mərkəzlərindən birində təşkil olunan əlil uşaqların sərgisində iştirak etmişdim. Həmin anlar indiyə qədər yaddaşımdan silinmir. Sərgidə bir rəsm diqqətimi çəkmişdi. Rəsmin müəllifi əsərində öz ailəsini canlandırmışdı. Balaca rəssamın adı Dəniz idi. Dəniz özünü ailəsi birlikdə çəkmişdi. Dəniz, atasını, anasını və balaca körpə qardaşını elə dəniz kənarında canlandırmışdı. Onun 6 yaş var idi. O, balaca qardaşını qucağından birlikdə onlara baxan valideynlərinə tərəf ötürür, amma dizi üstündə. Halbuki, Dəniz əlil arabasında olan əlil idi. Lakin o, özünü sağlam çəkmişdi. Buna çoxları elə də əhəmiyyət verməmişdi. Əsər barəsində Dənizin özündən məlumat almağa çalışdım. Bu barədə o, dedi: "Ailəmizi çəkmişəm. Çalışdım ki, bir yerdə olaq. Mən ailəmizdə tək övladam. Atam və anam mənə görə çox narahatdırlar. Mənə olan sevgilərini hər an hiss edirəm. İstərdim, bir qardaşım da dünyaya gəlsin. Adı Üfüq olsun. Tanrı mənim vasitəmlə onlara əlçatmaz bir üfüqü bəxş etsin. Mənim onlar üçün edə bilmədiyimi Üfüq etsin. Həyatımıza günəş yenidən şəfəq saçsın". Bu sözlərdən sonra çox təsirlənmişdim. Balaca bir fidanın daxilində nə qədər həyat eşqi, nə qədər müqəddəslik olduğuna heyrətlə baxmışdım. Həyat eşqi, arzular və saf niyyət rəngli çalarla ağ kətana həkk olmuşdu. Belə uşaqlar yetərincədir. Cəmiyyətə belə bir saf insanlar, istedadının geniş, fiziki imkanlarının məhdud olmasına baxmayaraq ruhdan düşməyən uşaqlar nə qədər fayda verə bilər.

### Sağlamlıq böyük nemət, yaşamaq üçün əsas şərtdir

Cəmiyyətimizdə hamının daha çox tanıdığı və hörmət etdiyi əlil idmançılardan biri də İlham Zəkiyevdir. Onun idman sahəsində qazandığı uğurlar yetərincədir. O, cüdo üzrə ikiqat Paralimpiya çempionu, ikiqat dünya, dəfələrlə Avropa çempionatının, Birinci Avropa Oyunlarının qalibi və daha neçə-neçə yarışların qızıl mükafatçısıdır. Qarabağ döyüşlərində aldığı güllə yarasından həyat işığından məhrum olan İlham Zəkiyevin ümid və istedad işığı sönməyib. O, cəmiyyətə inteqrasiya edən insanlar arasında yer alıb. Onunla müsahibələrimizdən birində dediyi sözlər buna misal ola bilər: "Bir dəfə məndən soruşdular ki, sən necə görürsən? Mən də cavab verdim ki, sizin gördüyünüzü mən hiss edirəm. Amma mənim hiss etdiyimi siz görmürsünüz".

Ramil Əhmədov da fiziki qüsurlu insanlardan biridir. Amma o, bir rəssam kimi heç bir qüsuru olmayan bəzi insanlardan fərqlənir. O, fırçanın dili ilə düşüncələrini rəsmə çevirən gənclərdən biridir. Onun yaratdığı tablolar sosial inteqrasiyaya yol açan bir vasitədir. Ən azından Ramilin əsərləri okeanın o tayında tanınır, rəğbətlə qarşılanır.

"İnsanlar müxtəlifdir və əlillik də sadəcə insan müxtəlifliyinin bir formasıdır. Bu son ola bilməz. Əlillik bütün həyatı bədbin keçirmək üçün səbəb deyil". Bu sözlər gənc motivator və əlillik üzrə ekspret Murad Məmmədovun özü barəsində dediklərindən bir sitatdır. Fiziki qüsurunun olmasına baxmayaraq, Murad Məmmədov cəmiyyətdə mövqe tutan insanlardandır. Onun fikrincə hər bir insan cəmiyyətin inkişafına öz töhvəsini verməlidir.

Doğrudan da, əlilləri cəmiyyətdən təcrid etmək olmaz. Onlar qarşılaşdıqları fiziki problemlərdən sonra həyata olan baxışı özlərində əks etdirirlər. Yəni, sağlam insanlar bunu yaxşı başa düşməlidirlər ki, sağlamlıq böyük nemətdir. Onun qədrini bilmək isə yaşamaq üçün əsas şərtdir. Biz bu nemətdən məhrum olmadan özümüzü və ətrafımızdakıları qorumalı, cəmiyyətdə özümüzü təsdiqləməliyik. Fiziki qüsurlu insanları başa düşməli, onları özümüzdən biri hesab etməliyik.

***Anar Əhmədov***

*Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu 3 Dekabr-Beynəlxalq Əlillər günü ilə əlaqədar fərdi jurnalist yazıları müsabiqəsinə təqdim etmək üçün*

# Dünya idmanı



## Braziliya Qran-Prisinin gələcəyi sual altındadır

Formula-1 Braziliya Qran-Prisinin keçirilməsi üzrə kontraktın müddəti 2020-ci ildə başa çatır və bu mərhələnin gələcəyi sual altındadır. San-Pauluda dəfələrlə bildiriblər ki, yarışların keçirilməsi şəhər büdcəsinə artıq yükdür və kontraktın uzadılması üçün xərcləri azaltmaq lazımdır.

Bu çərçivədə təxirəsalınmaz tədbirlərdən biri də "İnterlagos" avtodromunun özəlləşdirilməsidir. Lakin bunun üçün San-Paulu şəhər şurasının müvafiq qərarı tələb olunur. Məsələnin səsverməyə çıxarılması tarixi isə hələ müəyyən olunmayıb. Şəhər meri Bruno Kova bazar günü keçirilən yarışları izlədikdən sonra jurnalistlərə bildirib ki, avtodromun özəlləşdirilməsi "İnterlagos"da Formula-1-in taleyinin müsbət həlli deməkdir. "Bu yarışlar şəhərimiz üçün mühümdür və onu qoruyub saxlamaqdan ötrü lazım olan bütün imkanlara malikik", - deyə mer əlavə edib.

Öz növbəsində, "Liberty Media" şirkətinin nümayəndəsi qeyd edib ki, kontraktın uzadılmasına tələsmək lazım deyil, çünki hələ yetərincə vaxt var. Şirkət nümayəndəsi vurğulayıb ki, Braziliya mərhələsi Formula-1 üçün əhəmiyyətlidir.







## Messi mövsümün ən yaxşısı seçilib

İspaniyanın "Barselona" klubunun ulduz futbolçusu Lionel Messi La Liqanın 2017-2018-ci illər mövsümü üçün ən yaxşı oyunçusu mükafatını alıb. Bu barədə klubun rəsmi "tvitter" səhifəsi məlumat yayıb.

31 yaşlı hücumçu çempionatın hazırkı mövsüm daha rəqabətli olduğunu bildirib: "Heç nə asanlıqla əldə olunmur. Hər kəs qalib gələ bilər. Mən uğuru mümkün qədər davam etdirmək istəyirəm".

Qeyd edək ki, Lionel Messi ötən mövsüm La Liqada 36 oyuna 34 qol vurub. Kataloniya təmsilçisi mövsümü çempion kimi başa vurub. Komanda hazırkı mövsümdə 12 turdan sonra 24 xalla turnir cədvəlinə başçılıq edir.

## UFC çempionu kənarda qaldı

Tanınmış boksçu, MMA döyüşçüsü Həbib Nurməhəmmədov UFC tarixinin ən nüfuzlu idmançıları siyahısında kənarda qalıb.

ESPN mediaholdinqinin tərtib etdiyi reytinqdə rusiyalı idmançıya yer verilməyib. Əvəzində Həbibin bir müddət əvvəl qalmaqallı qarşılaşmada döydüyü irlandiyalı Konor Makqreqor siyahıda 5-ci yerdə qərarlaşıb.

Yeri gəlmişkən, qeyd edək ki, Həbib Nurməhəmmədov Dağıstanın ali mükafatına layiq görülüb. Dağıstan Respublikasının rəhbəri Vladimir Vasilyevin sərəncamı ilə o, "Vətən qarşısında xidmətlərə görə" ordeni ilə təltif edilib. İdmançının məşqçisi və atası Abdulmanap Nurməhəmmədov isə "İdman sahəsində xidmətlərə görə" medalına layiq görülüb.




## Sabiq qolkiper nazir oldu

Futbol üzrə Rusiya yığmasının sabiq qolkiperi, 35 yaşlı Vladimir Qabulov nazir təyin edilib.

Bir müddət əvvəl idman karyerasını başa vuran əlcək sahibi Rusiyanın Şimali Osetiya Respublikasının Mədəniyyət və İdman naziri təyin edilib.

Qeyd edək ki, ikiqat Rusiya çempionu olan Vladimir Qabulov əslən Şimali Osetiyadandır.

## İngiltərə premyer liqasında xanım rəhbər

"Animal Planet" kanalının prezidenti xanım Suzanna Dinneyç 2019-cu ilin əvvəlindən İngiltərə Premyer Liqasının rəhbəri vəzifəsini icra edəcək. Bu barədə liqanın saytı məlumat yayıb.

O, bu vəzifədə Riçard Skademoru əvəzləyəcək.

Qeyd edək ki, Riçard Skademor liqaya 1999-cu ildən rəhbərlik edirdi.

## Keçmiş cinayətkar klub rəhbərliyində

Rusiyanın Perm vilayətinin sabiq idman naziri Pavel Lyax "Amkar" klubunun rəhbərliyində yer alacaq.

Məlumat üçün bildirək ki, Pavel Lyax bir müddət əvvəl cinayət məsuliyyətinə cəlb edilib. 2011-ci ildə Permdə nazir təyin olunan bu insan 2016-cı ildə 15 milyona yaxın dövlət vəsaitinin mənimsənilməsi ilə bağlı cinayət işində təqsirli bilinib. Permdəki "Dinamo" stadionunu təmir işləri ilə məşğul olan sabiq nazir haqqında ikinci cinayət işi 2017-ci ildə açılıb. Bir il ərzində ev dustağı olan Lyax hazırda məhkəmənin qərarı ilə Perm şəhərini tərk edə bilməz.

## Karateçiləri aparan avtobus aşıb

İranın Fars vilayətində qadın karateçiləri aparan avtobusun aşması nəticəsində 16 nəfər yaralanıb.

Bunu İranın Fars vilayəti Tibbi Hadisələr və Halların idarə edilməsi idarəsinin direktoru Məhəmməd Cavad Muradian deyib.

Hadisə ötən gecə Fars vilayətinin Xürrəmbid rayonu ərazisində baş verib. İdmançıların İranın yığma komandasının seçmə turunda iştirak etmək üçün Tehran istiqamətində hərəkət edərkən qəzaya uğradığı deyilir.

## *Azyaşlı idmançılar qəzaya uğrayıblar*

Peruda azyaşlı futbolçuları daşıyan avtobus qəzaya uğrayıb.

Hadisə Perunun şimalında baş verib. Uşaq futbol komandası turnirdə iştirak etmək üçün yola çıxıb, ancaq onlar mənzil başına çata bilməyiblər. Sürücü dağlıq massivdə idarəetməni itirib və avtobus dərəyə yuvarlanıb. Hadisə nəticəsində 7 uşaq həlak olub, 11 nəfər isə ağır yaralanıb. Hadisə ilə bağlı cinayət işi açılıb.

## *Klub prezidentinə heykəl qoyulacaq*

"Lester"in stadionu yaxınlığında mərhum prezident Vişay Şrivaddhanaprabheyə heykəl qoyulacaq.

Bunu Vişayın oğlu, "Lester"in vitse-prezidenti Ayvatt Şrivaddhanaprabhe bildirib. "Biz onun mənim və klub üçün etdiklərinin əvəzini heç vaxt qaytara bilmərik. Lakin adını qorumaq üçün King Power stadionunun yaxınlığında onun heykəlini qoyduracağıq", - deyə Ayvatt bildirib.

Qeyd edək ki, Vişay Şrivaddhanaprabhe oktyabrın 27-də "Lester" - "Vest Hem" qarşılaşmasından sonra şəxsi helikopteri ilə stadionu tərk etmək istəyərkən qəzaya uğrayıb.

Prezident Vişayla yanaşı, helikopterdə olan digər 4 şəxs də həyatını itirib.



Respublika Yüksək İdman Ustalığı Məktəbinin direktoru Cəfər Hümbətov və məktəbin kollektivi iş yoldaşları Nabat Camalovaya, anası

**Asya xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!

"Olimpiya dünyası" qəzetinin kollektivi Respublika Yüksək İdman Ustalığı Məktəbinin tədris işləri üzrə direktor-müavini Nabat Camalovaya, anası

**Asya xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı çap edilir.

E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-90-54; 564-74-19

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.